Günəş Şərqdən doğur!

№ 204 (5725), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az 6 noyabr 2022-ci il (bazar)

## Zəfərə gedən yol...

44 günlük Vətən savaşı ilə Qarabağ azadlığına qovuşdu




**44 günlük Vətən müharibəsində qazandığımız parlaq Zəfərin ikinci ili tamam olur.**

İstər 44 günlük əks-hücum əməliyyatının özü, istərsə də Şuşanın işğaldan azad edilməsi ilə möhürü vurulan Zəfər Günü tariximizin ən önəmli bir parçası kimi qan yaddaşımızda və dərsliklərdə yer alacaq. Zəfər Günü hər bir azərbaycanlı üçün xüsusi gündür, özəl təqvimdir.

(Səh.8)

# Laçındakı minalar...

## Ermənistan dəhlizdən başqa məqsədlər üçün istifadə edir




**"Danışıqlar prosesində elan olunan mesajlardan fərqli olaraq faktlar başqadır". Bunu jurnalistlərə açıqlamasında Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov deyib.**

Nazir bildirib ki, ritorika və addımlar arasında fərq var. Vaxtaşırı müsbət mesajlar eşidirik, ancaq bu ardıcıl deyil və bəzən ziddiyyətli olur.

(Səh.2)



## Rusiya sülhməramlılarının yerləşdiyi ərazi nəzarətdə saxlanacaq

General Zakir Həsənov müşavirədə tapşırıqlar verib

**Dünən Müdafiə Nazirliyində general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə xidməti müşavirə keçirilib.** Müşavirədə nazir müavinləri, qoşun növü komandanları, nazirliyin baş idarə, idarə və xidmət rəisləri, həmçinin hərbi birlik və birləşmə komandirləri iştirak ediblər. Hərbi qulluqçulara ali hərbi rütbələrin verilməsi haqqında Prezidentin Sərəncamı və müdafiə nazirinin müvafiq əmri oxunduqdan sonra hərbi qulluqçulara ali hərbi rütbələr təqdim edilib.

(Səh.3)

## Tələbələrin ali məktəbə bərpası qaydası hazırlanacaq

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib

Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində təhsilalanların təhsil müəssisəsindən xaric və ya təhsil müəssisəsinə bərpa olunması qaydası hazırlanacaq.

(Səh.4)

## Noyabrın 10-na qədər iş yoxdur

Bu gündən Azərbaycanda dördgünlük bayram tətili başlayır

Noyabrın 6-dan etibarən Azərbaycanda dördgünlük bayram tətili başlayır.

(Səh.5)

# Nankor İran...

Millət vəkilləri Tehranın son addımlarını kəskin tənqid ediblər



**Milli Məclisin dünənki iclasında deputatlar İranın son günlər Azərbaycan əleyhinə atdığı addımlara, rəsmi Tehranın sərgilədiyi düşmənçilik mövqeyinə qarşı sərt çıxışlar ediblər.**

Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva deyib ki, İranın addımları qonşuluq münasibətlərinə sığmır. Onun sözlərinə görə, bu gün Azərbaycanı istəməyən revanşist qüvvələr var: "Ona görə biz iki il əvvəl olan birliyi davam etdirməliyik. Çünki bizi daha böyük uğurlar gözləyir".

Deputat Elman Nəsirov da bildirib ki, İran nankorluq edir: "Prezident İlham Əliyev 16 il bundan qabaq İranla bağlı mövqeyini bildirmişdi. Dövlətimizin başçısı heç vaxt icazə verməyib ki, bizim ölkəmizdən İrana qarşı plasdarm kimi istifadə edilsin".

(səh.5)

## "Gələcəyə nəfəs!"

11 noyabrda bütün ölkə ərazisində 111 111 ağac əkiləcək



Qardaş Türkiyənin "Gələcəyə nəfəs!" şüarı altında hər il noyabrın 11-də Türkiyədə keçirilən genişmiqyaslı ağacəkmə aksiyası ölkəmizdə də ənənəyə çevrilib.

(səh.2)

## "TikTok"a qoyulmuş məhdudiyyət aradan qaldırılıb

Nazirlik hər kəsi müəyyən etdiyi qayda və şərtlərə riayət etməyə çağırır




**Azərbaycan ərazisində "TikTok" sosial şəbəkəsinin fəaliyyətinə tətbiq edilmiş müvəqqəti məhdudiyyət aradan qaldırılıb.**

Bu barədə "Şərq"ə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidmətindən bildirilib.

Xidmət vətəndaşları sosial şəbəkələrdə paylaşım edərkən Azərbaycan Respublikasının qanunvericiliyinin tələblərinə və sosial şəbəkə inzibatçılarının müəyyən etdiyi qayda və şərtlərə riayət etməyə çağırır.



## "Əlimizə tarixi bir fürsət düşüb"

Əhməd Obalı: "Güney Azərbaycan Cümhuriyyətinin yaranması vaxtı yetişib"

(səh.7)



## "Füzulidən Şuşaya qədər ərazilər yerlə bir edilib"

Fuat Oktay: "Azad edilmiş ərazilərdə erməni vəhşiliyinin şahidi olduq"

(səh.4)

# Laçındakı minalar...

## Ermənistan dəhlizdən başqa məqsədlər üçün istifadə edir



## Bununla İrəvan üçtərəfli bəyanatın maddələrini pozur

**“Danışıqlar prosesində elan olunan mesajlardan fərqli olaraq faktlar başqadır”. Bunu jurnalistlərə açıqlamasında Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov deyib.**

Nazir bildirib ki, ritorika və addımlar arasında fərq var. Vaxtaşırı müsbət mesajlar eşidirik, ancaq bu ardıcıl deyil və bəzən ziddiyyətli olur. O qeyd edib ki, eyni şəxslərin çıxışlarında ziddiyyətlər mövcuddur: ”Danışıqlar prosesində bir xəttin davam etdiyini görmək olmur. Ermənistan tərəfi indiyə qədər silahlı birləşmələrini bizim ərazilərimizdən çıxarmayıb. Bu kontingentin çıxarılması üçtərəfli bəyanatda qeyd olunmuşdu”.

**“Üçüncü tərəflərin təsiri ilə Ermənistanın destruktivlik nümayiş etdirməsi qəbuledilməzdir”**

XİN rəhbəri qeyd edib ki, bölgədə yeni əməkdaşlıq imkanları yaranan bir dövrdə, hər hansı üçüncü tərəflərin təxribatyönümlü addımlar atması və ya onların təsiri ilə qarşı tərəfin addım atması, destruktivlik nümayiş etdirməsi yolverilməzdir, qəbuledilməzdir. Nazir bildirib ki, Azərbaycan buna yol verməyəcək: ”Azərbaycan bütün təxribatların qarşısını qətiyyətlə alacaq. Bizim strategiyamız bəllidir, biz beynəlxalq hüququn prinsiplərinə və normalarına uyğun olaraq, qarşılıqlı ərazi bütövlüyünün tanınması və ona hörmət edilməsi ilə əməkdaşlığın qurulmasını istəyirik və bu istiqamətdə işləməyə davam edəcəyik”.

Xarici işlər naziri Ceyhun Bayramov deyib ki, mina partlayışları baş verən ərazilərlə bağlı, ümumiyyətlə Ermənistan Azərbaycana mina xəritəsi verməyib. Nazir bildirib ki, Laçında 2021-ci il istehsalı olan minalar aşkarlanıb: ”Prosesin ləngiməsi istiqamətində addımlar müşahidə edirik, bunun zərərini elə Ermənistan görür”.

**“Ermənistanla danışıqların davam etdirilməsinə ehtiyac var”**

C.Bayramov vurğulayıb ki, Azərbaycan sülh gündəliyinə sadiqliyini nümayiş etdirir. Bu istiqamətdə danışıqların davamına ehtiyac var və Azərbaycan buna hazırdır: ”Amma təəssüf ki, prosesin ləngiməsi müşahidə olunur. Ermənistan tərəfindən normalaşmaya qarşılıq verilmir, biz ciddi əməli addımların atılmasını görmürük. Üçtərəfli bəyanatın şərtlərinə zidd olaraq, ərazilərdən hələ də tam olaraq erməni birləşmələri çıxarılmayıb, mina təhlükəsi qalır və bununla bağlı Ermənistan tərəfindən dəqiq xəritələr tam təqdim olunmayıb. Bu ilin yayında aşkar olunub ki, Ermənistan Laçın ətrafında minalar yerləşdirib. Bu da Ermənistanın təxribatının davam etməsinin sübutudur”.

**“Qeyri-dost fikirlər diqqətimizdədir”**

Xarici işlər naziri bildirib ki, qonşu ölkələrlə yaxşı münasibətlərimizin olması bizim üçün bir nömrəli prioritetdir: ”Biz müstəqillik dövründə İran İslam Respublikası ilə yaxşı, xoş qonşuluq münasibətlərinin qurulması istiqamətində ardıcıl addımlar atmışıq. Hesab edirəm ki, bu istiqamətdə bizim birgə uğurlarımız da az olmayıb”. Nazirin sözlərinə görə, İranla Azərbaycan arasında bir sıra müsbət layihələr həyata keçirilib: ”İran mediasında Azərbaycana qarşı söylənən fikirlər, qeyri-dost fikirlər təbii ki, Azərbaycan tərəfinin diqqətindədir, bizi narahat edir. Biz XİN səviyyəsində danışarkən bunu açıq şəkildə danışırıq, müzakirə edirik. Mənim iranlı həmkarım, nazir Abdullahiyan bu məsələyə çox həssaslıqla yanaşır və öz səlahiyyətləri çərçivəsində hər zaman Azərbaycan-İran münasibətlərində hər hansı xoşagəlməz halların aradan qaldırılması üçün addımlar atır, mən bunu bir neçə dəfə müşahidə etmişəm. Bizim onunla kifayət qədər intensiv, birbaşa dialoqumuz var. Bir şeyi vurğulamaq istəyirəm ki, münasibətləri qoruyub saxlamaq və inkişaf etdirmək kifayət qədər mürəkkəb prosesdir. Nəyisə korlamaq isə daha asandır, nəinki onu bərpa etmək. Azərbaycan tərəfi bütün lazımi addımları atacaq ki, iki ölkə arasında münasibətlər indiyə qədər olan müsbət məcrada davam etsin”. Azərbaycan ABŞ-ın Ermənistan XİN rəhbəri ilə görüş təşəbbüsünə razılıq verib. C.Bayramov qeyd edib ki, Vaşinqtonda Azərbaycan və Ermənistan XİN başçıları arasında ikitərəfli görüş keçiriləcək. Nazir Ermənistan XİN başçısı Ararat Mirzoyanla görüş təşəbbüsünün ABŞ tərəfindən gəldiyini bildirib: ”Azərbaycan da bu təşəbbüslə razılaşıb. Görüş yaxın zamanda baş tutacaq”.

Ceyhun Bayramov qeyd edib ki indiyədək Laçında 1400-dən artıq mina aşkarlanıb, gələcəkdə bunların sayı nə qədər olacaq bilinmir. Bu, beynəlxalq hüquq və prinsiplərin, üçtərəfli bəyanatın aşkar pozuntusudur: ”Ermənistan üçtərəfli bəyanatın Laçın dəhlizi ilə bağlı maddəsini pozub. Minaların bu ərazilərə gətirilməsi təxribatın davam etdirilməsi deməkdir. Bu həm də Laçın dəhlizindən başqa məqsədlər üçün istifadə olunduğu deməkdir. Bilirsiniz ki, Laçın dəhlizi yalnız üç istiqamətdə - vətəndaşlar, nəqliyyat və yüklərin daşınması üçün mülki məqsədlərlə istifadə oluna bilər. Ermənistanın bu hərəkəti həm də üçtərəfli bəyanatın həmin maddəsini aşkar pozması deməkdir”.

**İsmayıl**

# Mərkəzi Seçki Komissiyası sədrinin səlahiyyəti artırılıb



**Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş ”Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nda dəyişiklik edilməsi barədə Fərman imzalayıb.**

Fərmana əsasən, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş ”Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”na aşağıdakı məzmunda 5-1-ci hissə əlavə edilir:

”5-1. Məcəllənin 179-1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası adından - Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri.”.

# Putin böyük strateji səhvlərə yol verib

## Stoltenberq: Rusiyanın nüvə silahı ilə bağlı mövqeyində dəyişiklik yoxdur



**Nüvə müharibəsinin qalibi olmayacaq. Bu mesajı konkret olaraq veririk.**

APA xəbər verir ki, bunu Türkiyədə səfərdə olan NATO Baş katibi Yens Stoltenberq NTV-yə müsahibəsində deyib.

O qeyd edib ki, Rusiyanın nüvə silahı ilə bağlı mövqeyində hər hansı dəyişiklik yoxdur.

Baş katib vurğulayıb ki, Putin NATO-nun Ukraynaya dəstəyini və Alyansın birliyini çox ciddiyə almayıb, böyük strateji səhvlərə yol verib: ”Ukraynaya dəstəyi davam etdirməyimiz əhəmiyyətlidir. Putin qalib gəlsə, sadəcə Ukrayna üçün fəlakət olmayacaq. Rusiya Ukraynada qalib gəlsə, bu, bütün dünyanın ziyanına olacaq. Hamımız üçün Ukraynanın qalib gəlməsi, Putin məğlub olması önəmlidir”.

# Tibbi maska idxalı 2025-ci ilə qədər gömrük rüsumundan azad edilir



**Tibbi (cərrahiyyə əməliyyatı və ya prosedur üçün) maskaların istehsalı məqsədilə hopdurulmuş və ya hopdurulmamış, örtüklü və ya örtüksüz, təkrarlanmış və ya təkrarlanmamış, toxunmamış materialların idxal gömrük rüsumundan azad edilmə müddəti artırılıb.**

Bu, Nazirlər Kabinetinin ”Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri”ndə etdiyi dəyişiklikdə əksini tapıb.

Tibbi (cərrahiyyə əməliyyatı və ya prosedur üçün) maskaların istehsalı məqsədilə hopdurulmuş və ya hopdurulmamış, örtüklü və ya örtüksüz, təkrarlanmış və ya təkrarlanmamış, toxunmamış materiallar 31 dekabr 2024-cü ilə qədər idxal gömrük rüsumundan azad edilir. Bundan əvvəl bu müddət 31 dekabr 2022-ci il tarixinədək olan dövrü əhatə edirdi.

Eyni zamanda, tibbi (cərrahiyyə əməliyyatı və ya prosedur üçün) maskalar və tibbi (cərrahiyyə əməliyyatı və ya prosedur üçün) respiratorların idxal gömrük rüsumundan azad edilmə müddəti də daha 2 il artırılır.

Bu Qərar dərc edildiyi gündən 30 gün sonra qüvvəyə minir.

# Türkiyədə Azərbaycanın Zəfər Günü qeyd ediləcək



**Türkiyədə Azərbaycanın Zəfər Günü qeyd ediləcək.** Milli Məclisin deputatları - parlamentin Səhiyyə komitəsinin sədri, Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əhliman Əmiraslanov, qrupun üzvləri Ağalar Vəliyev və Anar Məmmədov noyabrın 6-dan 10-dək Türkiyənin Ankara və İstanbul şəhərlərində səfərdə olacaqlar.

Deputatlarımız 8 noyabr - Zəfər Günü münasibətilə ölkəmizin Türkiyədəki səfirliyinin təşkilatçılığı ilə keçiriləcək silsilə tədbirlərdə iştirak edəcək, 44 günlük Vətən müharibəsində həlak olmuş şəhidlərin əziz xatirəsini yad edəcəklər.

*Səfər çərçivəsində Milli Məclisin deputatlarının bir sıra görüşləri də nəzərdə tutulur.*

# “Gələcəyə nəfəs!”

## 11 noyabrda bütün ölkə ərazisində 111 111 ağac əkiləcək



**Qardaş Türkiyənin ”Gələcəyə nəfəs!” şüarı altında hər il noyabrın 11-də Türkiyədə keçirilən genişmiqyaslı ağacəkmə aksiyası ölkəmizdə də ənənəyə çevrilib.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Ekoloji Maarifləndirmə və İctimaiyyətlə Əlaqələr şöbəsinin müdiri Səyyarə Məmmədova ”Şərq”ə bildirib ki, qardaş Türkiyədə hər il 11-ci ayın 11-ci günündə keçirilən bu təşəbbüsə ölkəmiz növbəti dəfə də böyük ruh yüksəkliyi ilə qoşulacaq: ”Bu il də Türkiyənin bu təşəbbüsünü dəstəkləyərək, bütün ölkə ərazisində 111 111 ağac əkməklə bu nəcib aksiyaya töhfə verəcəyik”.

Şöbə müdiri qeyd edib ki, Azərbaycan 2020-ci ildən başlayaraq Türkiyənin ”Gələcəyə nəfəs” adlı ağacəkmə təşəbbüsünə qoşulub və ölkənin bütün bölgələrində kütləvi ağacəkmə aksiyaları keçirib: ”Bu cür irimiqyaslı aksiyaların keçirilməsi yaşıllıqların genişləndirilməsi ilə yanaşı, iqlim dəyişmələrinin fəsadlarını minimuma endirmək üçün ölkəmizin qoşulduğu təşəbbüslərə dəstəkdir”.

# Rusiya sülhməramlılarının yerləşdiyi ərazi nəzarətdə saxlanacaq

## General Zakir Həsənov müşavirədə tapşırıqlar verib





**Dünən Müdafiə Nazirliyində general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə xidməti müşavirə keçirilib. Müşavirədə nazir müavinləri, qoşun növü komandanları, nazirliyin baş idarə, idarə və xidmət rəisləri, həmçinin hərbi birlik və birləşmə komandirləri iştirak ediblər. Hərbi qulluqçulara ali hərbi rütbələrin verilməsi haqqında Prezidentin Sərəncamı və müdafiə nazirinin müvafiq əmri oxunduqdan sonra hərbi qulluqçulara ali hərbi rütbələr təqdim edilib.**

Ali Baş Komandanın təbriklərini hərbi qulluqçulara çatdıran müdafiə naziri onlara gələcək xidmətlərində uğurlar arzulayıb, müvafiq tapşırıq və tövsiyələrini verib. Sonra müdafiə naziri Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Azərbaycan Ordusu qarşısında qoyduğu tapşırıqları müşavirə iştirakçılarına çatdırıb. Azərbaycan-Ermənistan şərti sərhədində və Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi ərazilərimizdəki mövcud əməliyyat şəraiti ətraflı təhlil edilib. Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi ərazilərimizdəki qeyri-qanuni erməni silahlı dəstələrinin fəaliyyətinin daim müşahidə edilməsi və nəzarətdə saxlanılmasının vacibliyi xüsusi qeyd edilib. Vurğulanıb ki, müdafiə naziri Hərbi Hava Qüvvələrinin, Xüsusi Təyinatlı Qüvvələrin, həmçinin Raket və Artilleriya Qoşunlarının ölkəmizin cənub rayonlarında dislokasiya olunan hərbi hissələrində və Əməliyyat (Komando) bölmələrində olub. Buradakı təlim mərkəzlərinə baxış keçirib, bölmələrin praktiki döyüş hazırlığı məşğələlərini izləyib. Əməliyyat planları dəqiqləşdirilib, döyüş hazırlığının daha da yüksəldilməsi ilə bağlı komandanlıq qarşısında konkret tapşırıqlar qoyulub. Ali Baş Komandanın Laçın şəhərində Azərbaycan Bayrağının ucaldılması mərasimindəki çıxışında səsləndirdiyi "Bizimlə heç kim ultimatum dili ilə danışa bilməz" sözlərini xatırladan nazir, şəxsi heyətin peşəkarlığı və qoşunların döyüş hazırlığına xüsusi diqqət yetirilməsi, təlimlərin, o cümlədən səhra məşğələlərinin intensivliyinin artırılması barədə tapşırıqlar verib. General-polkovnik Z.Həsənov şəxsi heyətin ideoloji iş və mənəvi-psixoloji təminatının daha da gücləndirilməsinə daim diqqət yetirilməsinin vacibliyini qeyd edib. Döyüş növbətçiliyi və gündəlik xidməti fəaliyyət zamanı təhlükəsizlik qaydalarına ciddi riayət olunmasının daim nəzarətdə saxlanılması xüsusi vurğulanıb.

**Siyasi şərhçi Aqşin Kərimov "Şərq"ə deyib ki, türkiyəli general-polkovnik Bəxtiyar Ərsay Azərbaycan uniformasında müşavirədə iştirak edib:** "Əlbəttə, burada təəccüblü və qeyri-adi heç nə yoxdur. Şuşa Bəyannaməsi var, hətta başqa müşavirələrdə də türk generallar da iştirak edə bilər. Hesab edirəm ki, bəzi mövzuların üzərinə vurulmuş "məxfilik qrifləri" aradan qaldırılacaq. Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi ərazilərimizdəki qeyri-qanuni erməni silahlı dəstələrinin fəaliyyətinin daim müşahidə edilməsi və nəzarətdə saxlanılmasının vacibliyi xüsusi qeyd edilib. İranla sərhəddəki hərbi təlimlər də müzakirəyə çıxarılıb. Mümkün variantlar odur ki, Türkiyə modelli antiterror əməliyyatlarının gündəliyi hazırlanır. Ermənistanla sərhəddəki əməliyyatlar təhlil edilərək itki sayının azaldılması və daha effektiv nəticələrə nail olunması üçün Türkiyə ilə məsləhətləşmələr aparılır. Eyni zamanda İranın şərti hücum planı barədə fikirlər var və Bakı ilə Ankara təhlükəsizliyi qorumaq üçün birgə iş planı hazırlayırlar".

**İsmayıl**



## TÜRKSOY Mədəniyyət Nazirləri Daimi Şurasının 40-cı iclası gələn il Şuşada keçiriləcək

**TÜRKSOY Mədəniyyət Nazirləri Daimi Şurasının 40-cı iclası gələn il Şuşada keçiriləcək.**

Mədəniyyət Nazirliyindən bildirilib ki, bu barədə qərar Bursada TÜRKSOY Mədəniyyət Nazirləri Daimi Şurasının 39-cu iclasında qəbul edilib.

İclasda TÜRKSOY Mədəniyyət Nazirləri Daimi Şurasının 40-cı dönəm toplantısının koordinatorluğu Azərbaycanın mədəniyyət naziri Anar Kərimova həvalə edilib.

Həmçinin mədəniyyət nazirlərinin yekdil qərarı ilə Türkmənistanın Anev şəhəri 2024-cü il üçün "Türk Dünyasının Mədəniyyət Paytaxtı" seçilib.

## İtaliyada helikopter qəzası nəticəsində 7 nəfər ölüb



**İtaliyanın Apuliya bölgəsində helikopter qəzaya uğrayıb.**

APA-nın yerli mətbuata istinadən verdiyi məlumata görə, bu barədə regionun vitse-prezidenti Rafaele Piemontese bildirib.

Helikopterin içərisində olan 7 nəfərin hamısı ölüb.

Adriatik dənizindəki Tremiti adasından havaya qalxan "Agusta A109" helikopteri radarlardan itib.

Ölən dörd nəfərin Sloveniyadan olan eyni ailənin üzvləri olduğu bildirilir.

# Türk Dövlətlərinin Bank Birlikləri Şurası yaradılıb



**Azərbaycanın iştirakı ilə Türkiyənin İstanbul şəhərində Türk Dövlətlərinin Bank Birlikləri Şurasının yaradılması ilə bağlı imzalanma mərasimi keçirilib.**

"Report" bu barədə Türkiyə mətbuatına istinadən xəbər verir.

Məlumata görə, mərasimdə Türkiyə Banklar Birliyinin (TBB) İdarə Heyətinin sədri Alpaslan Çakar, "Azərbaycan Banklar Assosiasiyası" İctimai Birliyinin prezidenti Zakir Nuriyev, Qazaxıstanın Banklar Assosiasiyasının İdarə Heyətinin sədr müavini Marat Baytokov, Qırğızıstanın Banklar Birliyinin İdarə Heyətinin sədr müavini Ənvər Abdraev, Özbəkistanın Banklar Birliyinin xarici əlaqələr üzrə direktoru Tahir Babamuradov iştirak edib. Bundan başqa, Gürcüstan Banklar Assosiasiyasının İdarə Heyətinin sədri Aleksandr Dzneladze, Şimali Kipr Banklar Assosiasiyasının İdarə Heyətinin sədri Olgun Önal və Macarıstan Banklar Assosiasiyasının baş katibi Levente Kovacs tədbirə müşahidəçi qismində qatılıb.

Şura Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin hüquqi normativlərinə, beynəlxalq konvensiyalara və nizamnamələrə uyğun fəaliyyət göstərəcək. Şura çərçivəsində rəqəmsal bankçılığın inkişafı, iqlim və ekoloji risklərlə mübarizə, ödəniş ekosistemlərinin yayılması kimi məsələlərdə əməkdaşlıq nəzərdə tutulub.

# Son sözü xalq deyəcək

## İran parçalandıqdan sonra üç versiyadan biri reallaşacaq



**İranda etirazlar gərgin mərhələyə qədəm qoyub. Baş verən proseslərin ölkədə rejim dəyişikliyinə, hətta İranın parçalanmasına gətirib çıxaracağı, müstəqil dövlətlərin yaranacağı deyilir.**

Ölkənin bütün şəhərlərində gerçəkləşən etirazlar daha bir "xalqlar həbsxanası"nın dağılacağını gündəmə gətirir. Fars şovinistlərinin digər xalqlara qarşı yürütdüyü ayrı-seçkilik siyasəti artıq öz nəticələrini açıq şəkildə göstərməkdədir. Müşahidələr göstərir ki, hazırda İran cəmiyyətinin bütün təbəqələri, hərbi rəhbərlik də daxil olmaqla Tehran rejimi ilə qarşıdurma vəziyyətindədir.

**Politoloq Samir Hümbətov "Şərq"ə açıqlamasında vurğulayıb ki, İranda baş verən kütləvi etirazlar fonunda bir sıra versiyaların olması qətiləşməyə doğru gedir. Analitikə görə, etiraz aksiyaları fonunda gözləmək mümkündür ki, İranın şimal hissəsində yaşayan Azərbaycan türkləri üç formadan birini qəbul etsin:** "Birincisi, federal idarəetmə sistemi içərisində böyük əksəriyyətlə hakimiyyətin qurulmasıdır. İkincisi, tam müstəqilliyin əldə edilməsi və Cənubi Azərbaycan Respublikasının yaradılmasıdır. Üçüncüsü isə İrandan ayrılaraq Azərbaycan Respublikasına birləşməsi və bütöv Azərbaycan halına gəlməsidir. Əlbəttə, hər üç versiya üzərində ehtimallar mövcuddur. Amma məsələnin digər bir tərəfi beynəlxalq güclərin üçüncü versiyanın reallaşması ilə bağlı hansı reaksiyanı göstərməsidir. Yəni böyük güclər İranın parçalanması fonunda sözügedən ərazilərin Azərbaycana birləşməsinə imkan verəcəklərinə inamın az olmasıdır. Sözsüz ki, burada son sözü xalq deyəcək. Əgər üçüncü versiya olmasa, ikinci versiya da bizim üçün məqbul hesab edilir. Onun reallaşması gələcəkdə birləşmə ehtimallarını gücləndirə bilər. Təbii ki, burada da siyasi proseslərin gedişindən çox məsələlər asılıdır. Birinci versiyaya gəldikdə isə bunu son gözlənti kimi dəyərləndirmək olar ki, bu da özlüyündə gələcəkdə müəyyən perspektivlər vəd edə bilər. Hər vəziyyətdə İranın parçalanması həm Azərbaycan, həm də türk dünyası baxımından önəmli addım ola bilər".

**İsmayıl Qocayev**

# “Füzulidən Şuşaya qədər ərazilər yerlə bir edilib”

## Fuat Oktay: “Azad edilmiş ərazilərdə erməni vəhşiliyinin şahidi olduq”

**”Prezident İlham Əliyev Azərbaycan-Türkiyə strateji əməkdaşlığının daha da inkişaf etdirilməsi üçün tapşırıqlar verib”. Bunu baş nazir Əli Əsədov Şuşada Türkiyənin vitse-prezidenti Fuat Oktayla mətbuat konfransında deyib. Baş nazir, Prezident İlham Əliyevin Fuat Oktayı qəbul etdiyini xatırladıb:**

”Bu görüş zamanı Azərbaycan-Türkiyə strateji əməkdaşlığının daha da inkişaf etdirilməsi üçün tapşırıqlar verilib. O tapşırıqlar Azərbaycan hökuməti qarşısında da qoyulub. Biz iki gün ərzində indiyə qədər qazanılmış nailiyyətləri daha da sürətləndirmək üçün işləri planlaşdırdıq. Gələcəkdə onları reallaşdırmaq üçün ciddi fəaliyyət planımız mövcuddur”.

**“Təbii olaraq, vaxt baxımından bütün məsələlər həll edilməyib”**

**Baş nazir Fuat Oktayın dəvəti ilə Türkiyəyə səfər etdiyini də xatırladıb:** ”Keçən ilin fevral ayında ilk olaraq Hökumətlərarası Komissiyanın iclası keçirildi. Hökumətlərarası Komissiya tərəfindən qarşımıza qoyulan məsələlərin əksər hissəsini həll etmişik. Təbii olaraq, vaxt baxımından bütün məsələlər həll edilməyib. Amma biz güclərimizi toplayaraq qalan məsələləri yəqin ki, yaxın zamanlarda həll edəcəyik. Bir neçə gün sonra biz Zəfər Gününü qeyd edəcəyik. 29 oktyabr tarixində isə Türkiyə Cümhuriyyətinin milli bayramı kimi qeyd olunub. Fürsətdən istifadə edib bir daha bütün türk xalqını bu milli bayram münasibətilə təbrik etmək istərdim”. Əli Əsədov Türkiyənin 44 günlük müharibə dövründə ilk dəqiqələrdən Azərbaycan xalqının yanında durduğunu xüsusilə vurğulayıb: ”Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğan, cənab Fuad Oktay, Türkiyə rəhbərliyi və bütün türk xalqı Azərbaycan xalqının yanında durdu. Azərbaycan xalqı o günləri heç vaxt yadından çıxarmayacaq”.



**“Azərbaycan-Türkiyə münasibətləri ən yüksək səviyyəyə çatıb”**

*Baş nazir deyib ki, 2021-ci ilin iyun ayının 15-də Azərbaycan Prezidenti İlham Əliyev Şuşada ilk dəfə olaraq Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı qarşıladı.*

Baş nazir bildirib ki, dövlət başçıları tərəfindən həmin gün imzalanmış Şuşa Bəyannaməsi isə Azərbaycan və Türkiyə arasında dünya miqyasında görünməmiş dostluq, qardaşlıq, tərəfdaşlıq və həmrəyliyin zirvəsinə çevrilərək ikitərəfli münasibətlərimizi strateji müttəfiqlik səviyyəsinə qaldırıb: ”Azərbaycan-Türkiyə dostluğu, qardaşlığı xalqlarımızın ortaq milli mənəvi dəyərlərindən və ənənələrindən güc alır. Prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın yorulmaz səyləri nəticəsində Azərbaycan-Türkiyə münasibətləri bu gün ən yüksək səviyyəyə çatıb. Dövlət başçılarımızın arasında mövcud olan səmimi dostluq və qardaşlıq münasibətləri, inam və etimad Azərbaycan və Türkiyə əlaqələrinin uğurlu inkişafına müsbət təsir göstərən ən vacib amildir. Ölkələrimiz arasında müttəfiqlik münasibətləri bütün sahələr üzrə yüksələn xətt üzrə inkişaf etməkdədir. Hesab edirəm ki, cənab Fuat Oktayın səfəri bunun bariz nümunəsidir. Səfər çox uğurlu keçir”.

**“Şuşamız artıq dövlət başçılarının görüşünə ev sahibliyi edir”**

**Əli Əsədov deyib ki, müqəddəs Şuşamızı ziyarət etmək bu illər ərzində hər birimizin arzusu olub:** ”Bu xoşbəxtliyi bizə nəsib edən Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev, həmçinin rəşadətli Azərbaycan Ordusu, qəhrəman əsgər və zabitlərimiz olub. 2020-ci ilin noyabrın 8-də tarixi, mədəni və strateji əhəmiyyətə malik Şuşa şəhəri erməni işğalçılarından azad olub. Azərbaycan 44 günlük Vətən müharibəsində uğurlu əks-hücum əməliyyatı ilə ən mühüm tarixi hadisəni və böyük hərbi qələbəsini qazandı. Eyni zamanda, müharibənin gedişinə və taleyinə həlledici təsir göstərən Zəfər günü kimi tariximizə yazıldı. Bir neçə gündən sonra Azərbaycan xalqı və Azərbaycan xalqına yaxın olan bütün başəri vətəndaşlar bu Zəfər Gününü bizimlə bərabər qeyd edəcəklər. Azərbaycan xalqı üçün müstəsna mənəvi dəyərə malik olan Şuşamız artıq ən yüksək səviyyədə dövlət başçılarının görüşünə ev sahibliyi etməyə başlayıb”.

**”Şairlər, yazarlar, musiqiçilər, qəhrəmanlar, alimlər şəhəri Şuşadayıq”**

**Türkiyənin vitse-prezidenti Fuat Oktay Şuşada bildirib ki, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində Ermənistanın törətdiyi vəhşiliklərin şahidi olduq:** ”Füzulidən Şuşaya qədər ərazilər yerlə bir edilib”. O qeyd edib ki, azərbaycanlıların qovulduğu ərazilərdə ot belə bitmirdi və bütün dünya bunun şahidi olmalıdır. Oktay, həmçinin azad edilmiş ərazilərdə Azərbaycanın həyata keçirdiyi yenidənqurma işlərindən çox məmnun olduğunu qeyd edib: ”Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyanın 10-cu iclası ilə bağlı Azərbaycanda, Şuşadayıq. Şairlər, yazarlar, musiqiçilər, qəhrəmanlar, alimlər şəhəri Şuşadayıq”. Fuat Oktay bu günlərdə Azərbaycanın Zəfərinin ikinci ildönümünün qeyd olunacağını xatırladıb: ”Azərbaycanda, xüsusən Şuşada tək millət olmağın nə demək olduğunu bir daha hiss etdik”.

**İsmayıl Qocayev**



## Tələbələrin ali məktəbə bərpası qaydası hazırlanacaq

### Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib

**Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində təhsilalanların təhsil müəssisəsindən xaric və ya təhsil müəssisəsinə bərpa olunması qaydası hazırlanacaq.**

Bu, Milli Məclisin dünən keçirilən iclasının gündəliyinə daxil edilən ”Təhsil haqqında” qanuna təklif edilən dəyişiklikdə əksini tapıb.

Dəyişikliyə əsasən, dövlətin vəzifələri sırasına ali təhsil müəssisələrinin bakalavriat (əsas (baza ali) tibb təhsilində) və magistratura səviyyələrində təhsilalanlar tərəfindən təhsil müəssisəsinin, ixtisasın, təhsilalma formasının dəyişdirilməsi, onların təhsil müəssisəsindən xaric və ya təhsil müəssisəsinə bərpa olunması, habelə təhsilalanların təhsilini müvəqqəti dayandırması ( onlara akademik məzuniyyətin verilməsi) qaydalarını müəyyən etmək əlavə edilir.

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

# Güney azərbaycanlılarına ciddi dəstək verilməlidir

## “Yeni sanksiyalar İranın aqressiyasına təsir göstərməyəcək”

**G7 xarici işlər nazirləri İranı məsuliyyətə cəlb etmək istəyir.**

**Buna səbəb kimi 2020-ci ilin yanvarında İran tərəfindən “Boeing” təyyarəsinin vurulmasıdır.**

Bu barədə G7 ölkələrinin xarici işlər nazirlərinin birgə bəyanatında qeyd edilib.

Bəyanatda həmçinin İran dövlətlərə və qeyri-dövlət subyektlərinə pilotsuz təyyarələrin ötürülməsində ittiham olunub.

Həmçinin, həbs olunan etirazçıların azad edilməsi ilə bağlı İrana çağırış edilib. G7-nin xarici işlər nazirləri İran tərəfindən ikili vətəndaşlığı olan və xarici vətəndaşların saxlanmasını da pisləyib.

Eyni zamanda, İranın nüvə silahı əldə etməsinə yol verilməməsi barədə qərar verilib.

İran həmçinin Nüvə Silahlarının Yayılmaması Müqaviləsi çərçivəsində Beynəlxalq Atom Enerjisi üzrə Agentliklə “qeyri-kafi əməkdaşlıqda” ittiham edilib.

G7 hesab edir ki, İran nüvə sazişinin bərpası üçün lazımi şərtləri yerinə yetirməyib.



**İqtisadi sanksiyaların effekti olmadığını deyən Azərbaycan Demokrat Partiyasının sədr müavini, politoloq Həsrət Rüstəmov “Şərq”ə açıqlamasında vurğulayıb ki, belə sanksiyalarla ciddi siyasi nəticələr əldə etmək mümkün deyil:**

“Məsələn, Rusiyaya qarşı sanksiyaları götürsək, artıq 1 ilə yaxındır ki, davam edir. Lakin öz məqsədinə çataraq, Kremli çökdürə bilməyib. Doğrudur, Rusiyaya ziyan dəydi. Amma bu ziyan təkcə şimal qonşumuza deyil, sanksiyaları tətbiq edən ölkələrə də təsir göstərdi. Bu baxımdan yanaşdıqda İrana qarşı yeni sanksiyaların effekti azdır.

Onsuz da onlar uzun müddətdir, təcrid olunmuş vəziyyətdədir. Yəni yeni sanksiyalar, İranın aqressiyasına təsir etməyəcək. Burada sanksiyaların əksinə, rəsmi Tehranın daxilindəki siyasi prosesləri izləmək və oradakı azərbaycanlılara dəstək vermək lazımdır. Necə ki, Azərbaycan Prezidenti də bu istiqamətdə bəyanat verdi, hökumət də qiyabi fəaliyyətə keçməlidir.

Bu baxımdan da cənublu qardaşlarımızın və İranın daxilindəki demokratik proseslərin dünya dövlətləri tərəfindən dəstəklənməsi işə fayda verə bilər”.

**Nihat Müzəffər**

# Nazir haqlıdır

## “İran və Rusiyanın təşəbbüsü ilə bölgədə gərginlik artır”



“Regionda baş verən istənilən hadisəyə adekvat cavab vermək hüququmuz var”

**8 Noyabr - Zəfər Gününə həsr olunan tədbir keçirilib. Tədbirdə Xarici işlər naziri Ceyhun Bayramov çıxış edib. Nazir bildirib ki, Azərbaycan üçüncü tərəflərin bölgədə törətmək istədiyi bütün təxribatların qarşısını alacaq:**

”Bölgədə yeni imkanlar yarandığı, Azərbaycanın azad edilən ərazilərini bərpa etdiyi bir dövrdə hər hansı üçüncü tərəflər tərəfindən destruktiv və təxribatyönümlü addımların atılması tamamilə yolverilməzdir. Azərbaycan dövlətinin bölgənin inkişafı ilə bağlı planları hamıya məlumdur”.

**Nazirin çıxışını ”Şərq”ə dəyərləndirən ”Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları” Mərkəzinin sədri, politoloq Samir Hümbətov söyləyib ki, Ermənistan-Azərbaycan münaqişəsində üçüncü tərəflərin bölgədə törətmək istədiyi təxribatların sayı hesabı yoxdur:** ”Son dövrlər İran və Rusiyanın təşəbbüsü ilə bölgədə gərginlik artır. İran həm Ermənistanı silahlandırır, həm də siyasi bəyanatlar verərək dəstəkləyir. Ermənistanın Qafan şəhərində Baş konsulluq açır. Erməni hərbçiləri öz ərazisində dron təlimlərinə cəlb edir. Rusiya erməni əsilli ən zəngin iş adamlarından biri Ruben Vardaryanı Qarabağa gətirməklə prosesləri qızışdırır. Mitinq keçirməklə durumu ağırlaşdırır.

Ceyhun Bayramovun fikirləri də doğrudur. Bakı səssiz qalmayacaq.

Qarabağ Azərbaycanın əzəli və əbədi torpağıdır. Beynəlxalq hüquq Qarabağı Azərbaycanın ərazisi kimi tanıyıb. Regionda baş verən istənilən hadisəyə adekvat cavab vermək hüququmuz var.

İstər Rusiyanın, istər İranın Azərbaycandan müəyyən qədər asılılığı var. Ölkəmiz sülhün, qarşılıqlı dostluq münasibətlərinin tərəfdarıdır. Başqaları bizə eyni münasibəti sərgiləməsə, onda əlavə tədbirlər görüləcək.

Azərbaycan yaxın zamanlarda baş verə biləcək istənilən təxribata qarşı adekvat tədbirlər həyata keçirə biləcək”.

**Aygün Tahir**

# Nankor İran...

## Millət vəkilləri Tehranın son addımlarını kəskin tənqid ediblər



**Milli Məclisin dünənki iclasında deputatlar İranın son günlər Azərbaycan əleyhinə atdığı addımlara, rəsmi Tehranın sərgilədiyi düşmənçilik mövqeyinə qarşı sərt çıxışlar ediblər.**

Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva deyib ki, İranın addımları qonşuluq münasibətlərinə sığmır. Onun sözlərinə görə, bu gün Azərbaycanı istəməyən revanşist qüvvələr var: ”Ona görə biz iki il əvvəl olan birliyi davam etdirməliyik. Çünki bizi daha böyük uğurlar gözləyir”.

**Deputat Elman Nəsirov da bildirib ki, İran nankorluq edir:** ”Prezident İlham Əliyev 16 il bundan qabaq İranla bağlı mövqeyini bildirmişdi. Dövlətimizin başçısı heç vaxt icazə verməyib ki, bizim ölkəmizdən İrana qarşı plasdarm kimi istifadə edilsin”. O qeyd edib ki, Azərbaycan Prezidentinin mövqeyi bu gün də dəyişməyib: ”Azərbaycanın siyasi rəhbəri İrana qarşı sanksiyalara heç zaman qoşulmayıb. Bəs, bu gün İran tərəfindən atılan addımlar nədir? Bu davranış İranın özünün ideologiyasına da daban-dabana ziddir. İranın bugünkü davranışları ilə bağlı seçicilərimiz də bizimlə görüşdə öz etirazlarını bildirir”. E.Nəsirov qeyd edib ki, Vaşinqton İrana qarşı prosesdə daim Azərbaycanın iştirakını istəsə də, Azərbaycan Prezidenti qətiyyətli şəkildə buna imkan vermir: ”Heç bir üçüncü dövlətin bizim ərazimizdən istifadə edib qonşu İrana qarşı addımlarına icazə verməyəcəyik. Düz 16 il bundan qabaq bu mövqeyi Prezidentimiz bildirib, 16 il keçib, yenə eyni mövqedəyik. İranın ali siyasi rəhbərliyi bir daha bilsin ki, Azərbaycan İrana qarşı addımların qarşısının alınmasında mühüm rol oynayıb”.

**Millət vəkili Bəhruz Məhərrəmov vurğulayıb ki, İranda molla rejimi azərbaycanlıları xüsusi hədəfə alır:** ”İranın molla rejimi müasir dövrdə dünyada təməl insan hüquq və azadlıqlarının realizəsi üçün ən ciddi maneələrdən birinə çevrilməkdədir”. B.Məhərrəmov deyib ki, zor gücünə mövcud rejimin qorunması məqsədi ilə İran faktiki olaraq heç bir hüquq və azadlıqlara, hətta təbii hüquqlara məhəl qoymayaraq 1948-ci il İnsan Hüquqları Bəyannaməsi, 1966-cı il Mülki Siyasi Hüquqlar Haqqında Pakt və BMT Nizamnaməsində qeyd olunan prinsiplər başda olmaqla beynəlxalq hüquq normalarını ayaqlar altına atır: ”İnsan hüquqlarının pozuntusu faktiki olaraq bütün sahələri əhatələyib, İranın bütün ərazisində, ələlxüsus da Cənubi Azərbaycanda geniş vüsət alan insanlıq əleyhinə cinayətlərlə müşahidə olunur. Ən dəhşətlisi də odur ki, bu prosesdə Tehran ”bir daşla iki quş vurmaq” taktikası seçərək məqsədli şəkildə azərbaycanlıları xüsusi hədəfə alır. Üstəlik, qeyd edilməli digər məqam ondan ibarətdir ki, əgər əvvəllər teokratiya hansısa maneələr, qadağalar formasında vətəndaşları, xüsusən də soydaşlarımızın təməl hüquqlarına təcavüz edirdisə, artıq İranın aidiyyəti xüsusi xidmət orqanları və hətta ordu hissələri açıq təqibə start verib. Xüsusən həbsxanalarda vəziyyətin dözülməz həddə çatması barədə çoxsaylı faktlar tirajlanır. Yalnız son günlər ərzində işgəncəyə məruz qalan 40-dan çox günahsız məhbus məqsədli formada öldürülüb. Ona görə də beynəlxalq İnsan hüquqları təsisatları təcili olaraq bu məsələyə diqqət yetirməlidir. Eyni zamanda ümumi insan haqları kontekstində yox, bunun məhz azərbaycanlılara qarşı yönəlməsi nəzərə alınmalıdır”.

**İsmayıl**



## Müdafiə Nazirliyi təkzib edir

### Azərbaycan Ordusu Xocalının Pirlər kəndi istiqamətində mülki traktora atəş açmayıb

**Erməni sosial şəbəkələrində Azərbaycan Ordusunun bölmələri tərəfindən Xocalı rayonunun Pirlər kəndi istiqamətində mülki traktora guya atəş açılması barədə yayılan məlumatlar yalandır.**

Bu barədə ”Şərq”ə Azərbaycan Müdafiə Nazirliyindən (MN) bildirilib.

”Bu məlumatı qəti surətdə təkzib edirik”, - məlumatda qeyd olunub.

## Noyabrın 10-na qədər iş yoxdur

### Bu gündən Azərbaycanda dördgünlük bayram tətili başlayır

**Noyabrın 6-dan etibarən Azərbaycanda dördgünlük bayram tətili başlayır.**

Bayram tətili, qeyri-iş günləri noyabrın 6-7-8-9-nu əhatə edəcək.

Qeyd edək ki, Baş nazir Əli Əsədovun oktyabrın 18-də imzaladığı qərarla iş və istirahət günlərinin ardıcıllığını təmin etmək məqsədilə noyabrın 7-si iş günü ilə noyabrın 5-i istirahət gününün yerləri dəyişdirilib.

Noyabrın 6-sı bazar gününə təsadüf etdiyindən qeyri-iş günüdür. 8 Noyabr Zəfər Günü, 9 Noyabr isə Dövlət Bayrağı Günüdür.

*Qeyd edək ki, noyabrın 10-da artıq iş günü olacaq.*

## Ukrayna XİN İrana xəbərdarlıq edib



**İranın xarici işlər naziri Tehranın Ukraynanın genişmiqyaslı işğalının başlamasından bir neçə ay öncə Rusiya Federasiyasına döyüş dronları təhvil verdiyini ictimaiyyət qarşısında etiraf edib.**

APA-nın xəbərinə görə, Ukrayna Xarici İşlər Nazirliyinin (XİN) mətbuat katibi Oleq Nikolenko ”Facebook” paylaşımında belə qeyd edib.

Nikolenko Ukraynanın yalnız faktlara inandığını vurğulayıb. Əlavə edib ki, Ukrayna XİN müvafiq qurumlarla birlikdə Rusiyanın ukraynalıları öldürərkən və mülki infrastrukturu məhv edərkən İran dronlarından istifadə etməsinin qarşısının alınması məqsədilə ən sərt tədbirləri görməyə davam edəcək.

Oleq Nikolenko qeyd edib ki, Tehran Rusiyanın Ukraynaya qarşı təcavüzü cinayətlərində şərikliyinin nəticələrinin Rusiyanın dəstəyinin faydalarından daha genişmiqyaslı olacağını başa düşməlidir.

## Azərbaycanda İT sahəsinə maraq əhəmiyyətli dərəcədə artıb

**Son beş il ərzində Azərbaycanda informasiya texnologiyaları (İT) sahəsinə maraq əhəmiyyətli dərəcədə artıb.**

Trend-in məlumatına görə, bunu dünən elm və təhsil nazirinin müavini Muxtar Məmmədov IT Akademiyanın açılışında deyib.

Onun sözlərinə görə, nazirlik bu sahədə mütəxəssislərin sayının hər il artmasını gözləyir.

Nazir müavini əlavə edib ki, ölkə qısa müddət ərzində bu istiqamətdə böyük uğurlara nail olub.

”Texnologiyalar və IT hər bir şey demək olar bütün istiqamətlər üzrə bütün prosesləri sadələşdirir: məişətdə, istehsalatda, biznesdə və hətta hərbi sənayedə, biz 2020-ci ildə, 44 günlük müharibədə bunun şahidi olduq”, - deyə o bildirib.



# Naxçıvanın status məsələsinə heç kimin şübhəsi yoxdur

## "Azərbaycanda erməni təbliğatına və erməni dəyirmanına su tökən qruplar var"

**Dünən Milli Məclisin payız sessiyasının növbəti plenar iclası keçirilib. İlk olaraq 8 Noyabr ? Zəfər Günü ilə əlaqədar bəyanat qəbul edilib. Bəyanatı deputat Ramil Həsən oxuyub. Bəyanatda vurğulanıb ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində əldə etdiyi Zəfər Azərbaycan tarixinin müstəsna səhifələrindən biridir.**

Son 200 ilə yaxın dövrdə Ermənilərin həyata keçirdiyi etnik təmizləməyə birdəfəlik son qoyulması Azərbaycan tarixində yeni mərhələnin başlanmasına şərait yaradıb: "Təəssüf ki, böyük Zəfərə gedən yol xalqımıza böyük itkilər hesabına başa gəlib. 1 milyondan artıq soydaşımız 30 ildən artıq qaçqınlıq və məcburi köçkünlük yaşamağa məcbur olub. I Qarabağ müharibəsində itkin düşən 4000-ə yaxın soydaşımızın taleyi hələ də məlum deyil. İşğal olunmuş ərazilərdə erməni vandalları bütün şəhər və kəndlərimizi dağıdıb. İşğal dövründə mədəniyyət abidələrimiz məhv edilib. Azad edilmiş ərazilərdə Ermənistanın mina terroru hələ də davam edir. Lakin düşmənin vəhşiliyi və qəddarlığı xalqımızın mübarizə əzmini qıra bilməzdi və qıra da bilmədi. Xalqımızı qalib xalqa çevirən bu Şanlı Zəfər etibarlı siyasi rəhbərlik fenomenidir". Həmçinin, bəyanatda vurğulanıb ki, Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin siyasətini davam etdirərək Azərbaycanı dövrünün ən qüdrətli dövlətinə çevirib: "Yenilməz döyüş əzmi və yüksək peşəkarlıq sayəsində Şuşanı, digər şəhər və kəndlərimiz düşməndən təmizləndi. Daxili və xarici siyasətimiz xalqın maraqları və tələbatı üzərinə qurulub. 2020-ci il 10 noyabrda imzalanan üçtərəfli bəyanat Ermənistan və Azərbaycan arasında olan münaqişəyə son qoyub. Bu gün Qarabağ və Şərqi Zəngəzurda bərpa işləri görülür, infrastruktur yaradılır, yollar, körpülər, tunellər çəkilir, Zəngəzur dəhlizinin açılmasına hazırlıq görülür. Bütün bunlar Azərbaycanın daha da güclənməsini təmin edəcək. Milli Məclis Ermənistan tərəfini yaranmış tarixi fürsəti düzgün dəyərləndirməyə çağırır. Milli Məclis hesab edir ki, Azərbaycanın təklif etdiyi 5 prinsip əsasında sülh danışıqları prosesində yerinə yetiriləcək addımlar sülh sazişinin imzalanmasına kömək göstərəcək". Sonra Zəfər Günü ilə bağlı Milli Məclis tərəfindən hazırlanmış videoçarx nümayiş etdirilib. Müzakirələrdən sonra bəyanat qəbul edilib.

**"Qarabağ öz tarixi dövrünü yaşayır"**

**Milli Məclis sədri Sahibə Qafarova deyib ki, bu gün Qarabağ və Şərqi-Zəngəzur özünün yeni dövrünü yaşayır. Məcburi köçkünlər öz torpaqlarına qayıdır. Onun sözlərinə görə, Azərbaycanın qazandığı qələbə tarixə düşüb:** "Cənab Prezident və hörmətli birinci xanım vaxtaşırı həmin torpaqlara səfər edir. Eyni zamanda Azərbaycan tərəfindən sülh müqaviləsi üçün şərait yaradılıb. Əgər Ermənistan üzərinə götürdüyü öhdəliklərini yerinə yetirərsə, yaxın zamanda sülh müqaviləsi bağlana bilər. Bərpa işləri görür, yeni hava limanları tikilir".

**"Qars müqaviləsi ilə Naxçıvanın təhlükəsizliyinə zəmanət verilib"**

**Milli Məclisin Regional məsələlər komitəsinin sədri, deputat Siyavuş Novruzov deyib ki, Azərbaycanda erməni təbliğatına və erməni dəyirmanına su tökən qruplar var.** Deputat bildirib ki, bu gün bəzi şəxslər Naxçıvan Muxtar Respublikasının statusunun ləğv olunması məsələsini ortaya atıb: "Bu gün Prezident Ermənistanla sərhədlərin dəqiqləşdirilməsi üçün iş apardığı bir vaxtda belə mövzunun müzakirəsinin yeridir? Bunu edənlər erməni dəyirmanına su tökənlərdir. Buna qarşı kəskin mövqe ortaya qoymalıyıq. Qars müqaviləsi ilə Naxçıvanın təhlükəsizliyinə zəmanət verilib. O vaxt Zəngəzur dəhlizi Ermənistana veriləndə Naxçıvan Azərbaycandan ayrı düşüb. Dünyada Naxçıvan kimi statusa malik çox az yer var. Naxçıvanın statusunun ləğv edilməsinin qarşısı Ümummilli lider tərəfindən alınıb. Həmin dövrdə AXC-Müsavat cütlüyü Naxçıvanın statusunu ləğv etmək istəyirdi, Ümummilli lider qoymadı. İndi də onların tör-töküntüləri bu məsələni ortaya atıb. Bunun üçün birincisi, referendum çağırılmalıdır. Naxçıvan Muxtar Respublikasına qarşı aparılan təxribat xarakterli müzakirələrə son qoyulsun, suyu bulandırmasınlar".

**"Mediada çox şey yazıla bilər"**

Sədr Sahibə Qafarova isə bildirib ki, mediada çox şey yazıla bilər: "Naxçıvan Muxtar Respublikasının statusu məsələsinə heç kimin şübhəsi yoxdur". Parlamentin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov də deyib ki, Naxçıvan Muxtar Respublikası ilə bağlı qeyd olunan məsələ heç bir hüquqi əsasa malik deyil.

**"Tələbənin kəsrə görə pul ödəməsi rüşvətin rəsmiləşmiş formasıdır"**

**Deputat Siyavuş Novruzov təhsil problemləri ilə bağlı da danışıb. Deyib ki, tələbənin kəsrə görə pul ödəməsi rüşvətin rəsmiləşmiş formasıdır:** "Zərurət olanların köçürülməsinin qarşısını almaq olmaz. Məsələn, Naxçıvanda yaşayan əhalinin belə problemləri olur. Köçürmələrlə bağlı problemlər burada səsləndirildi. Hamımıza aydındır ki, əvvəllər Dağıstandan, Gürcüstandan köçürmələr çox idi. Bunun nə məqsədlə olduğunu bilirik. Əlbəttə, Harvard Universitetindən köçürmələr yox idi ki?!". S.Novruzov qiyabi və axşam təhsili məsələsinin bərpasına ehtiyac olduğunu bildirib: "Axşam təhsili olsa, tələbələr həm işləyib, həm təhsil ala bilərlər. Tələbələr üçün kampuslar yoxdur. Tələbələr məcbur olub kirayədə qalırlar. Bir çox universitetlər kəsrləri pulluya keçirib. Bu, elə rüşvətin rəsmiləşmiş formasıdır. Əvvəllər müəllim pul alıb qiymət yazırdı. İndi kəsrə görə pul verilir, dərsdə oturur. Tələbə onsuz da təhsil haqqı ödəyir. Valideyn də verdiyi pulun hesabatını istəyəndə ona cavab verilmir. Əgər bir tələbənin 6 kəsri varsa, elə təhsil haqqının yarısı miqdarında kəsrə pul ödəməli olur. Digər tərəfdən, tələbə təqaüdləri artırılmalıdır və minimum yaşayış həddinə çatdırılmalıdır".

**"Rəqabət yaradılmasa, hər manatdan səmərəli istifadə edə bilməyəcəyik"**

**Parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Əli Məsimli deyib ki, "Dövlət-özəl tərəfdaşlığı haqqında" qanunun mahiyyətində maraqların konflikti durur.** Deputat bildirib ki, 30 il işğal altında olan əraziləri düşmən tapdağından azad etməyimiz bu cür qanunların qəbulunun əhəmiyyətini xüsusilə artırır: "Bir vaxtlar Azərbaycana qoyulan sərmayələrin 80 faizə qədəri xarici sərmayələr idi. Amma 2021-ci ildə bu göstərici 27 faizdir. 2026-ci ildə isə xarici sərmayələrin 22 faizə enməsi proqnozlaşdırılır. Ona görə də bu kimi qanunların xarici sərmayələrin cəlbinə nə qədər təkan verəcəyi aydınlaşdırılmalıdır. Kiçik, orta bizneslərlə bağlı qanunun qəbul edilməsini alqışlayıram. Amma bu kimi qanunların işləməsi üçün əlverişli rəqabət mühiti yaradılmalıdır. Ona görə də Rəqabət Məcəlləsinin qəbulu üçün məqsədyönlü addımların atılmasını sürətləndirməliyik. Azərbaycana xarici sərmayənin cəlbediciliyini artırmaq üçün buna getməliyik. Bu qanun işləsə, bütün Azərbaycanı azad iqtisadi zonaya çevirə bilərik. Amma qanun işləməsə, hamı üçün rəqabət yaradılmasa, hər manatdan səmərəli istifadəni təmin edə bilməyəcəyik. Bu qanun bütövlükdə Azərbaycanda, o cümlədən azad olunmuş ərazilərdə mühüm layihələrin həyata keçirilməsinə şərait yarada bilər".

**"Narahatlıq doğuran məsələlərdən biri də universitetlərdə maaşların fərqli olmasıdır"**

**Deputat Ceyhun Məmmədov deyib ki, parlamentdə ali məktəblərdə müəllimlərin maaşının artırılması təklif edilib:** "İllər öncə bizim təhsilimizdə ən çox əziyyət çəkdiyimiz məsələ köçürmə ilə bağlı idi". Deputat bildirib ki, hətta xaricdə təhsil alanları köçürməkdə maraqlı olan bəzi universitetlər var idi: "Ona görə də öncəki illərdə kütləvi köçürmələr baş verirdi". C.Məmmədov qeyd edib ki, bu gün təhsildə narahatlıq doğuran məsələlərdən biri də universitetlərdə maaşların fərqli olmasıdır: "Bu gün qiymət artımına da baxanda müəllimlərin maddi vəziyyətinin yaxşılaşdırılması istiqamətində addımlar atmalıyıq. Eyni zamanda təqaüdlərin artırılması da diqqət mərkəzində olmalıdır. Bu gün kişilər təhsil sahəsində fəaliyyət göstərmirlər. O baxımdan burada həm tələbələrin təqaüdünün artırılması, həm də müəllimlərin maaşının artırılması məsələsi müzakirə edilməlidir".

**İsmayıl**



## "Şəhərdən Kəndə"

### Layihə çərçivəsində 115 fermer təlimə cəlb olunub

**Kənd Təsərrüfatı Nazirliyinin "Şəhərdən Kəndə" layihəsi çərçivəsində bu günə qədər yerli və əcnəbi mütəxəssislərin həyata keçirdiyi təlimlərdə 115 təsərrüfat sahibi iştirak edib.**

"Şərq" bu barədə nazirliyə istinadən xəbər verir.

Məlumata görə, ümumilikdə layihəyə qoşulmaq üçün 200-dən artıq aqrar sahibkar qeydiyyatdan keçib. Baxış keçirilən 134 fermer təsərrüfatından 97-si aqroturizm fəaliyyətləri üçün uyğun hesab edilib.

"Şəhərdən Kəndə" layihəsinin məqsədi ölkəmizdə aqroturizmin inkişaf etdirilməsi, regionlarda yaşayan əhalinin məşğulluğunun artırılması, yerli fermer təsərrüfatları üçün alternativ satış kanalı, eləcə də şəhər sakinləri və xarici turistlər üçün fərqli turizm imkanlarının yaradılmasıdır.

## Rusiyadan alınan daha iki qatar tərkibi Bakıya gətirilib



**Bakı metropoliteninin Rusiyanın "Metrovaqonmaş" şirkətindən aldığı daha 10 yeni vaqondan ibarət iki qatar tərkibi Bakıya gətirilib.**

Bu barədə Trend-ə Bakı metropoliteninin mətbuat xidmətinin rəhbəri Bəxtiyar Məmmədov deyib. O bildirib ki, artıq yeni vaqonlar Nərimanov Elektrik Deposuna daxil olub. Qatarlar saxlanma sınaq işləri aparılandan sonra xəttə buraxılacaq. Yeni gətirilən qatarların bu ilin sonuna qədər istifadəyə verilməsi gözlənilir.

Bununla da Bakı metrosunda yeni qatarların sayı 23-ə, vaqonların sayı isə 115-ə çatıb.

*Xatırladaq ki, 2019-cu ildə bağlanmış müqaviləyə əsasən, Bakı metrosu 2020-2022-ci illərdə Rusiyadan ümumilikdə 12 qatar (60 vaqon) almalı idi.*

## 19 ukraynalı sərhədçi Rusiya əsirliyindən azad olunub

**19 ukraynalı sərhədçi Rusiya əsirliyindən azad olunub.**

APA xəbər verir ki, bu barədə Ukrayna Dövlət Sərhəd Xidmətinin "Telegram" hesabında məlumat verilib.

"Uzun aylar davam edən rus əsirliyi arxada qaldı. 19 sərhədçi evə qayıdıb. Onları tibbi müayinə və reabilitasiya gözləyir. Amma əsas odur ki, onlar sağdırlar və evdədirlər", - məlumatda deyilir.

# "Əlimizə tarixi bir fürsət düşüb"



## Əhməd Obalı: "Güney Azərbaycan Cümhuriyyətinin yaranması vaxtı yetişib"

**"Güney Azərbaycandakı posterlərin yayılması və Azərbaycan Prezidentinə dəstək verilməsi gözlənilən idi. Çünki orada bir oyanış, özünə qayıtma var və Azərbaycan gəncliyində, Türk milli kimliyinə önəm vermə prosesi başlayıb".**

**Bunu "Şərq"ə açıqlamasında GünAz TV rəhbəri, siyasi şərhçi Əhməd Obalı Cənubdakı soydaşlarımızın Prezident İlham Əliyevə dəstək mesajları və şüarlar səsləndirməsinə münasibət bildirərkən deyib.**

O bildirib ki, Azərbaycan Prezidentinin Türk Dövlətlər Təşkilatı rəhbəri ilə görüşdə Dünya Azərbaycanlılarına dəstəyi, Güneydəki milli ruha təkan verdi: "Mərhələli getsək, 1990-cı illərdə Azərbaycan Respublikasının yenidən bərpa olunması, Azərbaycançılıq ideyasına böyük təkan verdi. Ondan sonra Güney Azərbaycanda tələbələrimizin farslardan ayrılaraq, Güney Azərbaycan tələbə gününü təyin etmələri və 2006-cı ildə 4 milyon insanın yığılaraq "Azərbaycan var olsun, istəməyən kor olsun" söyləməsi yeni bir mərhələnin başlanğıcı oldu. İkinci Qarabağ savaşından əvvəl, Azərbaycanda zəlzələ olmuşdu və İran buna laqeyd qalmışdı. Xalq isə bunun üstündə hərəkətləndi və onları məcbur etdi ki, Qaradağ zəlzələsinə kömək etsin. İkinci Qarabağ savaşında yəni 2020-ci ildə artıq Güney Azərbaycanda yeni bir mərhələ başladı.

Əvvələ İranın millətin gözünün qabağında Ermənistana silah göndərməsi, bizə çox ağır gəldi. Bu səbəblə də etirazlar etdik və yüzlərlə insanımız həbs edildi. Onlardan bəziləri hələ də həbsdədir, bəziləri isə məhkəmələrdə get-gələ məcbur edilir. Azərbaycan Ordusunun qələbəsindən və Şuşanın alınmasından sonra ermənilərin 10 noyabr kapitulyasiyasına imza atması, Güneydəki soydaşlarımıza daha çox ruh yüksəkliyi gətirdi.

Nəhayət, Azərbaycanla Türkiyə arasındakı Şuşa Bəyannaməsindən sonra, artıq hiss elədik ki, Azərbaycan tamamən sığortalanıb. Bunların içində ən çox milli ruha təkan verən isə Azərbaycan Prezidentinin TDT rəhbəri ilə görüşündə, dünya Azərbaycanlılarına verdiyi dəstək mesajı idi. Çünki orada çox incə məqamlara toxunuldu. Prezident İlham Əliyev əlimizdən gələn dəstəyi verəcəyik dedi. Bu isə artıq Güneydə yeni bir reallığı ortaya qoydu. Bu çıxışdan sonra, Güneyli Azərbaycanlılar daha çox meydana çıxdılar və əsas şüarımız da "Azadlıq", "Ədalət", "Milli hökumətdir". 2004-cü ilin axırında GünAz TV-nin açılışı ilə ilk dəfə Güney Azərbaycanda 24 saatlıq da olsa müstəqil televiziyamız oldu. Bu gün də yerli media qurumları Güney Azərbaycanın səsini dünyaya çatdırmalıdır".

**Analitikin sözlərinə görə, gedişat Güney Azərbaycanın oyanmasına daha da çox yardımçı olacaq:** "İndi isə artıq elə bir mərhələyə çatmışıq ki, güneyli soydaşlarımız Azərbaycan dövlətindən mənəvi dəstəklə yanaşı, sistem yaratmaq üçün konkret əməl görmək istəyirlər. Bunun olacağına isə inanıram. Yəni Azərbaycan Prezidentinin Güney Azərbaycana ünvanlanmış dəstək mesajının bir sıra əməllərlə davam edəcəyini düşünürəm. Əlimizə tarixi bir fürsət düşüb. Güneydə və İranın digər yerində etirazlar davam edir. Bu etirazların nəticəsində İran bir az da zəifləyir. Onlar zəiflədikcə biz də fürsətdən yararlanaraq öz milli dövlətçiliyimizin reallaşması üçün addım atmalıyıq. Artıq Güney Azərbaycan Cümhuriyyətinin yaranma vaxtı yetişib. Bu bir neçə il ərzində ola bilər və reallaşdırmaq üçün əl-ələ verib çalışmalıyıq".

**Nihat Müzəffərt**





# Fazil Məmmədov dəfn edilib

**Türkiyədə xəstəxanada vəfat edən sabiq vergilər naziri Fazil Məmmədov dəfn edilib.**

Mərhum Yasamal qəbiristanlığında torpağa tapşırılıb.

Dəfn mərasiminə onun ailə üzvləri, tanışları, bir sıra ictimai xadimlər qatılıblar.

*Qeyd edək ki, 1964-cü il təvəllüdlü Fazil Məmmədov 2000-2017-ci illərdə vergilər naziri vəzifəsini icra edib. O, eyni zamanda 2007-2018-ci illərdə Azərbaycan Güləş Federasiyasının prezidenti olub.*

# Zərdabda azyaşlı qızı qaçırmaq istədilər

## Əvvəllər məhkum olunmuş Məmməd Məmmədov müəyyən olunaraq saxlanılıb



**Zərdabda azyaşlı qızı qaçırmağa cəhd göstəriblər. Bu barədə "Şərq"ə Daxili İşlər Nazirliyindən məlumat verilib.**

Zərdab Rayon Polis Şöbəsinə noyabrın 3-də Körpükənd kəndi ərazisində bir nəfərin kənd sakini olan azyaşlı qızı qaçırmağa cəhd göstərməsi, qız səs-küy saldığından onu buraxıb hadisə yerini tərk etməsi barədə məlumat daxil olub.

Polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində adam oğurluğuna cəhd etməkdə şübhəli bilinən Körpükənd kənd sakini, əvvəllər məhkum olunmuş Məmməd Məmmədov müəyyən olunaraq saxlanılıb. Faktla bağlı Cinayət Məcəlləsinin 29,144-cü maddəsi (adam oğurluğuna cəhd) ilə cinayət işi başlanılıb. Zərdab Rayon Polis Şöbəsində araşdırma aparılır.




# Dronlar bəs eləmədi

## Rusiya İrandan qısamənzilli "Fateh" və "Zülfüqar" ballistik raketlərini alır

**"Ukrayna İran istehsalı dronların qarşısını alan İsrail hərbi texnologiyalarını əldə etdikdən sonra xeyli sayda dronlar məhv edilib".**

**Bu barədə "Multimedia" İnformasiya Sistemləri Texnologiyaları Mərkəzinin direktoru Osman Gündüz deyib.** Ekspert bildirib ki, Rusiya Ukraynaya zərbə endirmək üçün İrandan qısamənzilli "Fateh" və "Zülfüqar" ballistik raketlərini alır: "Bu raketlərin daha sürətli, daha yüksəkliyə qalxdığı, daha dağıdıcı və dəqiqliyinin də yüksək olduğu bildirilir. Raketlər təxminən Rusiyanın "İsgəndər" raketləri ilə müqayisə oluna bilir. Ukrayna artıq bu raketlər əleyhinə Almaniyadan yeni zenit-raket kompleksləri sifariş edib. Amerikanlar da tələm-tələsik İranın ballistik raketləri əleyhinə Ukraynaya ən mükəmməl, Norveç istehsalı olan "NASAMS" hava hücumundan müdafiə vasitələri göndəriblər. Bu sistem göydə 40 km radiusda və 30 km hündürlükdə istənilən hücumu zərərsizləşdirə bilir. Belə görünür, İranın silah arsenalı Rusiyanın işğalçılıq siyasəti üçün hələ çox fayda verəcək".

**İsmayıl**

# Onlar hər an Vətənin çağırışına hazırdır

## Mətbuat Şurasında XTQ qazilərinin bir qrupu ilə görüş keçirilib






**Bu gün Azərbaycan Mətbuat Şurasında Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələrinin qazilərinin bir qrupu ilə görüş keçirilib.**

Şuradan "Şərq"ə bildirilib ki, 8 noyabr Zəfər Gününə həsr olunmuş görüşdə MŞ sədri Rəşad Məcid, Şuranın İdarə Heyətinin üzvü, Xüsusi Təyinatlıların Qaziləri, Şəhid ailələri və Veteranları İctimai Birliyinin sədr müavini Bəhruz Məmmədzadə, Şuranın Nəzarət-Təftiş Komissiyasının sədri, veteran jurnalist Rey Kərimoğlu və qurumun əməkdaşları iştirak ediblər. Toplantıda torpaqlarımızın bütövlüyü uğrunda mübarizədə canından keçmiş Vətən övladlarının, şəhid jurnalistlərin xatirələri bir dəqiqəlik sükutla yad edilib.

Qarşılıqlı müzakirələr şəraitində keçmiş görüşdə MŞ sədri Rəşad Məcid iştirakçıları Vətən müharibəsindəki qələbənin ikinci ildönümü münasibətilə təbrik edib. O, rəhbəri olduğu qurumun missiyası barədə məlumat verib, gördüyü işlərdən söz açıb. R.Məcid bildirib ki, 2022-ci ilin 24 sentyabr tarixində keçirilmiş Azərbaycan jurnalistlərinin VIII qurultayında Qarabağ müharibəsi iştirakçısı olmuş Bəhruz Məmmədzadə də Şuranın İdarə Heyətinə seçildi. MŞ sədri jurnalistlərin bu seçiminin qazilərlə bağlı məsələlərin media müstəvisində daha səmərəli işıqlandırılması, onların örnək döyüş yolunun cəmiyyətə daha yaxından çatdırılması baxımından faydalı nəticələr verəcəyinə inandığını dilə gətirib.

MŞ İdarə Heyətinin üzvü B.Məmmədzadə, həmçinin NTK-nın sədri R. Kərimoğlu çıxışlarında Vətən uğrunda canından keçmiş övladlarımızın, sağlamlığını itirmiş qazilərimizin, ümumən ömür yolu cəbhədən, səngərdən keçmiş hər bir şəxsin əməyinin ən xoş və qürur dolu sözlərə layiq olduğunu vurğulayıblar.

*Görüşdə iştirak etmiş Xüsusi Təyinatlı Qüvvələrin qazilərinə Azərbaycan Mətbuat Şurasının təşəkkürnamələri təqdim edilib. Çıxış edən XTQ qaziləri onlara verilən dəyərə görə təşəkkürlərini bildirib, hər an Vətənin çağırışına hazır olduqlarını vurğulayıblar.*

**Sücayət**








# Zəfərə gedən yol...

## 44 günlük Vətən savaşı ilə Qarabağ azadlığına qovuşdu

**44 günlük Vətən müharibəsində qazandığımız parlaq Zəfərin ikinci ili tamam olur. İstər 44 günlük əks-hücum əməliyyatının özü, istərsə də Şuşanın işğaldan azad edilməsi ilə möhürü vurulan Zəfər Günü tariximizin ən önəmli bir parçası kimi qan yaddaşımızda və dərsliklərdə yer alacaq. Zəfər Günü hər bir azərbaycanlı üçün xüsusi gündür, özəl təqvimdir.**

Çünki bizi böyük Zəfərə doğru aparan 44 gün ərzində millətimizin oyanışını, dirçəlişini müşahidə etdik. Biz Zəfər Gününə sadəcə hərbi qələbə bayramı kimi baxmırıq. Əziz şəhidlərimizin qanı ilə yoğrulmuş, hərbçilərimizin misilsiz şücaəti ilə ərsəyə gəlmiş bu bayram ilk növbədə bütün millətimizin həmrəylik bayramıdır. Zəfər Günü milli həmrəyliyimizin ən üst zirvəyə yüksəldiyi gündür. Nə qədim dövrlərdə, nə son minillik hərb tariximizdə heç vaxt bu cür ümummilli həmrəylik, milli birlik nümunəsi müşahidə olunmayıb. Son iki yüz ilə yaxın dövrdə davakar erməni millətçiliyinin həyata keçirdiyi qəsbkarlıq və etnik təmizləmələr silsiləsinə birdəfəlik son qoyulması Azərbaycan dövlətçiliyinin tarixində yeni inkişaf dövrünün başlanmasına təkan verdi. Yenilməz sərkərdəsinin və uzaqgörən liderinin rəhbərliyi ilə möhtəşəm qələbə əldə edən xalqımız bundan belə heç kəsin onunla güc və təzyiq dili ilə danışa bilməyəcəyini qətiyyətlə bəyan etdi. Təəssüf ki, Zəfərə gedən yol xalqımıza çox böyük qurbanlar və itkilər hesabına başa gəldi. On minlərlə azərbaycanlı qətlə yetirildi, yaralandı, şikəst edildi. Kütləvi etnik təmizləmə nəticəsində 1 milyondan artıq soydaşımız 30 ildən artıq qaçqınlıq və köçkünlük həyatı yaşamağa məhkum oldu. Hələ Birinci Qarabağ müharibəsi dövründə itkin düşmüş 4 minə yaxın azərbaycanlının taleyi bugünədək məlum deyil. Lakin düşmənin vəhşiliyi və qəddarlığı xalqımızın mübarizə əzmini qıra bilməzdi və qıra da bilmədi. Azərbaycan şəhid və qazilərinin canı və qanı bahasına BMT Təhlükəsizlik Şurasının, Qoşulmama Hərəkatının, ATƏT-in, Avropa Şurası Parlament Assambleyasının, Avropa Parlamentinin, İslam Əməkdaşlığı Təşkilatının və digər beynəlxalq təşkilatların qərarlarının icrasını təmin edərək, tarixi ədaləti və beynəlxalq hüquq normalarının və prinsiplərinin qüvvəsini bərpa etdi. Xalqımızı məğlubiyyət sindromundan qurtararaq qalib xalqa çevirmiş bu şanlı qələbənin təməlində dayanan başlıca amil son 29 il ərzində Azərbaycanda bərqərar olmuş səriştəli, etibarlı və məsuliyyətli siyasi rəhbərlik fenomenidir. Düşünülmüş hərbi konsepsiyanın həyata keçirilməsi müasir dövrün

### Xalq yenilməz lideri və qüdrətli ordusu ilə haqqı, ədaləti bərpa etdi

ən yüksək standartlarına cavab verən Silahlı Qüvvələrin formalaşdırılmasına imkan verdi. Xalqın maraqları və tələbatı üzərində qurulan daxili və xarici siyasət digər məsələlərlə yanaşı, cəmiyyətin və dövlətin bütün qüvvələrinin ümumi məqsəd naminə birləşməsinə gətirib çıxardı. Azərbaycançılıq ideallarından güc alan xalqımızın milli birliyi döyüş meydanında düşmənə endirilən "dəmir yumruğa" çevrilərək qələbənin mühüm amillərindən biri oldu. Beləliklə, Azərbaycan xalqına qarşı düşmənçilik siyasəti yeridən erməni şovinizmi və ekspansionizmi ağır məğlubiyyətə uğradıldı. 2020-ci il noyabrın 10-da Azərbaycan, Ermənistan və Rusiya liderləri tərəfindən imzalanan üçtərəfli bəyanat münaqişəyə son qoyulmasını təsbit edərək Ermənistanla Azərbaycan arasında sivil dövlətlərarası münasibətlər qurulmasının əsas parametrlərini müəyyənləşdirdi. Bu gün qalib Azərbaycan xalqı Vətən müharibəsində göstərdiyi hünərləri Qarabağda və Şərqi Zəngəzurda geniş vüsət alan bərpa-quruculuq işlərində də göstərir. İşğal dövründə viran qoyulmuş torpaqlarımıza yeni həyat gəlir. Məcburi köçkünlərin doğma yurdlarına qaytarılmasına yönələn nəhəng layihələr həyata keçirilir. Şəhər və kəndlərin təməli qoyulur, yeni yaşayış məntəqələri ilk sakinlərini qəbul edir. İnfrastruktur yaradılır, sənaye müəssisələri, digər obyektlər istifadəyə verilir, kənd təsərrüfatı dirçəldilir. Yollar, körpülər, tunellər çəkilir. Artıq həmin bölgədə iki beynəlxalq hava limanı istifadəyə verilmişdir, Zəngəzur dəhlizinin açılmasına hazırlıq görülür. Bütün bunlar Şərqlə Qərb arasında əlaqələndirici rol oynayan Azərbaycanın tranzit ölkə kimi potensialının daha da güclənməsini təmin edəcəkdir. Şübhə yoxdur ki, regionda yerləşən ölkələr arasında iqtisadi və nəqliyyat əlaqələrinin bərpa edilməsi, yeni nəqliyyat kommunikasiyalarının inşası, bölgənin logistika mərkəzinə çevrilməsi Azərbaycanla bərabər, qonşu dövlətlərin də iqtisadi inkişafına kömək göstərəcək.








**"44 günlük Vətən müharibəsi və postmüharibə dövrü bizə bir daha dostlarımızı da, bədxahlarımızı da tanıtdı"**

**Millət vəkili Musa Quliyev bildirib ki, cəmi 44 gün davam edən və düşmənin danışıqsız təslim olması ilə bitən Zəfər savaşını çox haqlı olaraq Vətən müharibəsi adlandırırıq.** Deputatın sözlərinə görə, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında yenilməz Azərbaycan Ordusu təkcə tarix yazmadı, həm də yeni coğrafiya yaratdı: "Bu qələbə nəticəsində ərazi bütövlüyümüz təmin olundu, təkcə ərazimiz böyümədi, həm də qəddimiz dikəldi, milli varlığımız ucaldı, qürurumuz böyüdü. Rəşadətli Azərbaycan Ordusu müzəffər Ali Baş komandanın rəhbərliyi altında 44 gün ərzində dünyada erməni mifini dağıtdı. Ermənistanı kapitulyasiya aktı imzalamağa məcbur etdi. Haqqın təntənəsi, ədalətin zəfəri olan bu tarixi qələbə həm də bəşəriyyəti erməni faşizmindən xilas etdi. Bu qələbə Ali Baş Komandan İlham Əliyevin hərbi, siyasi və diplomatik məharəti, səfərbəredici liderlik fəaliyyəti və şəxsi qəhrəmanlığı sayəsində əldə edildi. 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanat nəticəsində Ağdam, Kəlbəcər və Laçın rayonları bir güllə atılmadan, bir əsgərimizin burnu qanamadan işğaldan azad olundu. Bu qələbə Azərbaycanı qüdrətli dövlət kimi dünyaya tanıtdı".

**Parlament üzvü vurğulayıb ki, bu qələbə işğalçı Ermənistana və onun havadarlarına dərs verməklə yanaşı, həm də dünya hərb sənətinə yeni töhfələr verdi:** "Şuşanın işğaldan azad edilməsi isə hərb tarixində nadir uğurlu əməliyyat kimi hərb dərsliklərinə yazıldı. 44 günlük Vətən müharibəsi və postmüharibə dövrü bizə bir daha dostlarımızı da, bədxahlarımızı da tanıtdı. Cənab Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə qardaş Türkiyənin və bütövlükdə türk dünyasının dəstəyini qədirbilənliklə xatırlayırıq. Postmüharibə dövründə şəhid ailələrinin, qazilərimizin sosial müdafiəsi təmin olundu. Qarabağın və Şərqi Zəngəzurun bərpası istiqamətində əhəmiyyətli işlər görüldü. Bu işlərin daha böyük miqyasda davam etdirilməsi məqsədi ilə gələn ilin dövlət büdcəsindən 3 milyard manat ayrılması nəzərdə tutulmuşdu. Sülh danışıqları və üçtərəfli bəyanatın icrası cənab İlham Əliyevin nəzarəti altında, qalib xalqımızın istəyinə uyğun davam edir. Bədxahlarımızın, xüsusi ilə Fransanın və İranın terrorçu Ermənistana tərəfkeşliyinə rəğmən, biz Ermənistanı öhdəliklərini yerinə yetirməyə məcbur edəcəyik. Bütün kommunikasiyalar açılacaq, Zəngəzur dəhlizi də işə düşəcək və biz Zəngəzurdan keçərək tarixi mədəniyyət və dövlətçilik paytaxtımız olan gözəl şəhərimizə gedəcəyik. Zəfərimiz mübarək və davamlı olsun".

**İsmayıl**

# Deməklə olmur, sayları hər gün artır

## Yetkinlik yaşına çatmamış, nikah yaşı tamam olmamış neçə qızımız indiyədək evliliyə məcbur edilib



Məsuliyyəti təkcə valideynlər deyil, yaxın qohumlar, məktəb rəhbərliyi, sinif müəllimi, qonşular da daşıyır

**Zərdab rayonunun Körpükənd kəndində azyaşlı qızı qaçırmaq cəhdi baş tutmayıb. Yayılan məlumatlara görə, azyaşlını qaçırmağa cəhd edən şəxs həmin kəndin sakinidir və əvvəllər məhkumluq həyatı yaşayıb. Bu barədə Zərdab Rayon Polis Şöbəsinin məlumatında qeyd edilir ki, hadisə bir neçə gün əvvəl kənd ərazisində baş verib.**

Qız hay-küy saldığından onu qaçırmağa cəhd göstərən şəxs özü hadisə yerindən qaçıb. DİN-in məlumatında qeyd edilir ki, rayon polis şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində adam oğurluğuna cəhd etməkdə şübhəli bilinən Körpükənd kənd sakini, əvvəllər məhkum olunmuş Məmməd Məmmədov müəyyən olunaraq saxlanılıb. Faktla bağlı Cinayət Məcəlləsinin 29,144-cü maddəsi (adam oğurluğuna cəhd) ilə cinayət işi başlanılıb. Zərdab Rayon Polis Şöbəsində araşdırma aparılır. Adam oğurluğuna cəhd, həm də bir azyaşlıya qarşı törədilirsə, demək ki, ciddi tədbirlər həyata keçirilməlidir. Xatırladaq ki, Milli Məclisin Elm və Təhsil Komitəsinin iclasında bir çox qanunlara dəyişikliklər müzakirə edilib, o cümlədən Ailə Məcəlləsi, Cinayət Məcəlləsi, Cinayət-Prosessual Məcəllə və "Uşaq hüquqları haqqında" qanunlara. Müzakirələrdə diqqətə çatdırılıb ki, qanun layihəsi "Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında" Avropa Şurası Konvensiyasının təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 22 oktyabr tarixli Qanununun icrası ilə əlaqədar hazırlanıb. Layihədə təqdim edilmiş qanunlara və məcəllələrə təklif edilən dəyişikliklər Konvensiyaya uyğun olaraq qabaqlayıcı tədbirlər, qurbanlara yardım və maddi cinayət hüququ normalarından irəli gələn öhdəliklərin milli qanunvericilikdə yerinə yetirilməsini nəzərdə tutur. Elm və Təhsil Komitəsinin sədri Bəxtiyar Əliyev bildirib ki, təklif edilən dəyişikliklərdə uşaqların cinsi istismarının və onlara qarşı cinsi zorakılığın bütün formalarının qarşısının alınması, belə zorakılığın qurbanı olmuş şəxslərə yardımın göstərilməsi nəzərdə tutulur. Eyni zamanda, uşaqlarla işləyənlərə dair qoyulan tələblər, hüquqi şəxslərə dair cinayət hüququnun tətbiqi, valideynlik hüququndan məhrumetmə, yetkinlik yaşına çatmayan şəxslərin dairəsinin müəyyənləşdirilməsi, uşaqların müdafiəsi ilə bağlı məsələlər öz əksini tapıb. Bəxtiyar Əliyev bununla bağlı qabaqlayıcı tədbirlərin əhəmiyyətindən, maarifləndirmə işinin vacibliyindən danışıb. Bu sahənin dövlət tərəfindən diqqətdə saxlandığını söyləyib. Parlament Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev çıxış edərək adıçəkilən məcəllələrdə və qanunlarda nəzərdə tutulan dəyişikliklərin mahiyyəti barədə məlumat verib. O, qanun layihəsində 81 maddəyə əlavə və dəyişikliyin təklif edildiyini bildirib, dəyişikliklərin şəxsiyyətin cinsi toxunulmazlığı və cinsi azadlığı əleyhinə olan əməllərin qarşısının alınmasına yönəldiyini söyləyib.





Son zamanlarda erkən nikah, yetkinlik yaşına çatmayanların evləndirilməsi hallarının getdikcə artması azyaşlılara qarşı cinsi zorakılıq faktı hesab edilə bilər. Görünür ki, bu istiqamətdə ciddi tədbirlərə ehtiyac var.

**"Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova "Şərq"ə açıqlamasında qeyd etdi ki, qanunvericiliyə dəyişikliklər edilməsi müsbət haldır, lakin bununla kifayətlənmək olmaz:**

- Qanunvericiliyə dəyişikliklər şəxsiyyətin cinsi toxunulmazlığı və cinsi azadlığı əleyhinə olan əməllərin qarşısının alınmasına yönəlib. Təklif edilən dəyişikliklərdə uşaqların cinsi istismarının və onlara qarşı cinsi zorakılığın bütün formalarının qarşısının alınması, zorakılıq qurbanı olmuş şəxslərə yardımın göstərilməsi nəzərdə tutulur. Əslində, bunlar əhəmiyyətli dəyişikliklərdir. Lakin yalnız qanunvericiliyə dəyişikliklə kifayətlənsək, istədiyimiz, cəmiyyətin sağlamlaşmasına təsir edəcək nəticəni əldə edə bilmərik. Bu məsələlərdə hərtərəfli iş görülməlidir. Valideynlərlə söhbətlər, məktəblərdə şagirdlərlə maarifləndirmə işlərinin aparılması, yetkinlik yaşına çatmayanlarla xüsusi layihələrin icrası vacibdir. Zərdab rayonunda azyaşlının qaçırılması cəhdi konkret o uşağın səs-küy salması sayəsində mümkün olmayıb. Amma gəlin görək, yetkinlik yaşına çatmamış, nikah yaşı tamam olmamış neçə qızımız indiyədək evliliyə vadar edilib, məcbur edilib. Yetkinlik yaşına çatmayan qız ailə, evlilik, tərəf müqabiliylə davranış qaydalarını bilmir, bunlar barədə məlumatsız olur. Aydın məsələdir ki, belə hallarda bütün məsuliyyət valideynin üzərindədir. Ona görə də yetkinlik yaşına çatmayanların evləndirilməsinə görə birbaşa ailə - valideyn məsuliyyət daşıyır, həm də təkcə onlar yox. Yaxın qohumlar, məktəb rəhbərliyi, sinif müəllimi, qonşular. Hamı toy olacağını, kimin kiminlə evləndirildiyini bilir, amma çoxları susur, dövlət orqanlarını xəbərdar etmirlər. Bu vəziyyətdə o insanların hamısı suçludur, hamısı cinayətə şərait yaratmış adamlardır. Əgər valideynlər, yaxın qohumlar, qonşular, məktəb rəhbərliyi məsuliyyətə cəlb olunacaqlarını, təkcə inzibati cəza deyil, hətta azadlıqdan məhrumetmə cəzasına da məhkum ediləcəklərini bilsələr, cinayətə şərik olmazlar, əksinə, onun qarşısını almağa kömək edərlər.

**M.Zeynalova qeyd etdi ki, uşaqlarla işləyənlərə dair qoyulan tələblər də sərtləşməlidir, uşaqlarla işləyən şəxslərin sosioloji və psixoloji təcrübəsi olmalıdır.** Yetkinlik yaşına çatmayan şəxslərin dairəsinin müəyyənləşdirilməsində, uşaqların müdafiəsi ilə bağlı məsələlərdə qeyri-hökumət təşkilatları konkret nəticələrə hesablanan layihələr icra etməlidirlər.

- Maarifləndirmə işi vacibdir. Amma biz ictimaiyyətə müraciət formalarını dəyişməliyik. Tədbirlərlə, konfranslarla, qanunvericiliyə dəyişikliklə problemi qismən aradan qaldırmaq olar. İctimaiyyətə müraciətlər daha yaddaqalan və cəlbedici olmalıdır. Hazırkı audiovizual imkanların genişliyi şəraitində daha cəlbedici video-çarxlar tərtib edilə bilər. Səsli, musiqili mesajlar yeniyetmələri, gəncləri daha çox cəlb edir. İlk növbədə yeniyetmə onu hansı təhlükələrin gözlədiyini bilməlidir. Bunu bilsə, özünü müdafiə edə biləcək.

**Məlahət Rzayeva**



# Türkiyədə inflyasiya növbəti dəfə rekordunu yeniləyib

**Türkiyədə illik inflyasiya növbəti dəfə rekordunu yeniləyib.**

"APA-Economics" Türkiyə Statistika Təşkilatına (TÜİK) istinadən xəbər verir ki, istehlak qiymətləri indeksi (inflyasiya göstəricisi) ötən ilin eyni dövrünə nisbətən bu ilin oktyabr ayında 85,51%-ə çatıb. Oktyabr ayında qiymətlər sentyabr ayına nisbətən 3,54% artıb.

İllik baza inflyasiya oktyabr ayında 65,26% təşkil edib.

İstehsalçı qiymətləri indeksi sentyabr ayında ötən ilin eyni dövrünə nisbətən 151,50% artımla yüksəlişini davam etdirib. Aylıq istehsalçı inflyasiyası 4,78 faiz təşkil edib.

*Qeyd edək ki, Türkiyədə inflyasiya ardıcıl 17 aydır artmaqda davam edir.*

# Ordu hazırlıq vəziyyətindədir

## Zakir Həsənov hərbi hissələri yoxlayır

**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən noyabrın 4-də Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti Ermənistanla sərhəd bölgəsində dislokasiya olunan hərbi hissələrdə olub.**

Nazir yeni istifadəyə verilmiş yerləşmə məntəqəsində yaradılan şəraitlə tanış olub. Ona məruzə olunub ki, qoşun xidmətinin yüksək səviyyədə təşkili üçün məntəqədə bütün zəruri şərait yaradılıb.

Burada silah otağı, yataqxana, yeməkxana, mətbəx, ərzaq və əşya anbarları, hamam-sanitar qovşağı, isitmə sobaları, ərazini fasiləsiz elektrik enerjisi ilə təmin edən generatorlar və günəş panelləri, eləcə də döyüş texnikasının saxlanması üçün park mövcuddur. Qışa hazırlıq məqsədilə dayaq məntəqələrində və döyüş mövqelərində maye, odun və kömür yanacağı da daxil olmaqla bütün təminat növü ilə ehtiyat yaradılıb. Şəxsi heyətin məişət şəraiti ilə tanış olduqdan sonra general-polkovnik Z.Həsənov döyüş mövqelərində xidmət edən hərbi qulluqçuların xidməti döyüş fəaliyyəti ilə tanış olub.



Müdafiə nazirinə əməliyyat şəraiti ilə bağlı məruzələr edilib.

Sərt iqlim şəraitində və kəskin relyefli ərazilərdə xidmət edən hərbi qulluqçularla görüşən nazir onların döyüş və mənəvi-psixoloji hazırlığını yüksək qiymətləndirib.

Müdafiə naziri döyüş növbətçiliyinin və qoşun xidmətinin təşkili, hərbi qulluqçuların sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması ilə bağlı aidiyyəti şəxslərə müvafiq tapşırıqlar verib.

Xatırladaq ki, bundan öncə Z.Həsənov Cənub rayonlarında yerləşən hərbi hissələrə səfər etmiş və oradakı vəziyyətlə tanış olmuşdu.

**Səfəri "Şərq"ə dəyərləndirən hərbi ekspert Ədalət Verdiyev bildirib ki, bu səfərlər ilk növbədə XTQ-nin cənub rayonlarında keçirilən təlimləri ilə bağlıdır:** "Bundan başqa cənab nazirin bu səfəri həm də İran tərəfindən Azərbaycana qarşı olunan bəyanatlar fonundadır. Onun məhz cənubdakı hərbi hissələri ziyarət etməsi tapşırıqların dəqiqləşdirilməsi məqsədi daşıyırdı. Digər tərəfdən erməni silahlıları tərəfindən atəşkəsin pozulması intensiv şəkildə davam etməkdədir. Buna görə də Zakir Həsənov cənub rayonlarının ardından, işğaldan azad edilmiş rayonlarımızdakı hərbi hissələrə də ziyarət edib. Çünki nazirin səfəri bir istiqamətdə olmur, ən azı bir neçə istiqamətdə baş tutur. O getdiyi bölgələrdəki hərbi hissələrə tapşırıqlarını verir. Bundan başqa təminat və təchizat məsələləri var ki, onlarla maraqlanır".

**Nihat Müzəffər**

# Təkliflərlə yanaşı beynəlxalq təcrübə də öyrənilir

## Yeni qanun layihəsinin hazırlanması prosesi tamamilə demokratik və şəffaf formada təşkil edilib



**”Siyasi partiyalar haqqında” yeni qanun layihəsinin qəbul edilməsi günümüzün əsas tələblərindəndir”. Bu barədə millət vəkili, Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü Cavid Osmanov deyib. Deputat bildirib ki, son illər ərzində ölkəmizdə həyata keçirilən hərtərəfli islahatlar, eyni zamanda siyasi islahatların tərkib hissəsi olaraq formalaşan yeni siyasi konfiqurasiya, həmçinin Vətən müharibəsində qazandığımız möhtəşəm Zəfərin yaratdığı yeni reallıqlar ölkəmizin yeni inkişaf mərhələsinə keçidini təmin edib.**

Bu isə öz növbəsində ölkədə hər bir sahədə qanunvericilik bazasının müasir dövrün tələblərinə uyğun olaraq təkmilləşdirilməsi zərurətini yaradıb: ”Bütün bunlardan irəli gələrək ölkəmizin demokratiya yolunda inkişafını və formalaşan yeni siyasi konfiqurasiyanı daha da sürətləndirmək məqsədilə ”Siyasi partiyalar haqqında” yeni qanun layihəsinin qəbul edilməsi də günümüzün əsas tələblərindəndir. Nəzərə alaq ki, ”Siyasi partiyalar haqqında” mövcud qanun 1992-ci il 3 iyun tarixində, 30 il bundan əvvəl qəbul edilib. Artıq müasir dövrün tələblərinə bir o qədər də adekvat deyil. Bu baxımdan Milli Məclisdə təmsil olunan bütün siyasi partiyaların nümayəndələri ”Siyasi partiyalar haqqında” yeni qanun layihəsinin hazırlanması üçün Milli Məclisin sədrinə müraciət ediblər. ”Artıq bu istiqamətdə fəal işlər görülüb və Milli Məclisdə ”Siyasi partiyalar haqqında” yeni qanun layihəsi hazırlanaraq ictimai müzakirəyə təqdim edilib. Yeni qanun layihəsinin hazırlanması prosesi tamamilə demokratik və şəffaf formada təşkil edilib. Cari il iyulun 26-da Milli Məclis tərəfindən ”Siyasi partiyalar haqqında” yeni qanun layihəsinin hazırlanması prosesinə başlandığı barədə mediada açıqlama verilib. Hətta ilk dəfə olaraq qanun layihəsi Milli Məclisin plenar iclasına, həmçinin komitələrin iclaslarına çıxarılmazdan əvvəl Milli Məclisin saytında yerləşdirilib. Bununla yanaşı yeni qanun layihəsi ilə bağlı dinləmələr keçirilib. Oktyabrın 24-də parlamentdə təmsil olunan və ölkədə fəaliyyət göstərən əksər siyasi partiyaların sədrləri və nümayəndələrinin iştirakı ilə dinləmə keçirilib. Növbəti dinləmə isə noyabrın 4-də baş tutub. Dinləmələrdə siyasi partiya rəhbərləri və nümayəndələri qanun layihəsi ilə bağlı öz təklif və rəylərini bildirib. Göründüyü kimi, prosesin ictimai əlçatanlığı tam təmin edilib. Bu bir daha qanun layihəsinin demokratik şəraitdə hazırlandığını göstərən amildir”.

**C.Osmanov bildirib ki, ”Siyasi partiyalar haqqında” yeni qanun layihəsinin hazırlanması ölkəmizdə fəaliyyət göstərən siyasi partiyaların xüsusi maraq dairəsindədir:** ”Odur ki, Milli Məclis tərəfindən bu ilin 26 iyul tarixində dövlət qeydiyyatına alınmış siyasi partiyalara yeni qanun layihəsi ilə bağlı təkliflərin təqdim olunması üçün müraciət edilib. Ötən müddət ərzində 50-yə yaxın siyasi partiya 250-dən çox təkliflərini rəsmi olaraq Milli Məclisə təqdim edib ki, bu da özlüyündə layihənin hazırlanmasında siyasi partiyaların iştirakının təmin edilməsinin bariz göstəricisidir”. O qeyd edib ki, ”Siyasi partiyalar haqqında” yeni qanun layihəsinin hazırlanması zamanı siyasi partiyaların təklifləri ilə yanaşı beynəlxalq təcrübə də öyrənilib: ”Venesiya Komissiyasının siyasi partiyaların fəaliyyətinin tənzimlənməsi üzrə 2010-cu və 2020-ci illərdə qəbul etdiyi tövsiyələr, həmçinin 20-dən artıq ölkənin təcrübəsi nəzərdən keçirilib. Siyasi partiyaların təkliflərinin, beynəlxalq təcrübənin, eləcə də ictimai dinləmələrin kompleks halda nəzərə alınması nəticəsində müasir dövrümüzün tələblərinə cavab verəcək ”Siyasi partiyalar haqqında” yeni qanun layihəsi hazırlanacaqdır ki, bu da siyasi sistemimizin daha da təkmilləşdirilməsi işinə verilmiş növbəti töhfə olacaq”.

**İsmayıl**

# Təbrizdə çıxan qəzetdə Şuşa haqqında məqalə dərc olunub

## Nəzərə çatdırılıb ki, 270 yaşı olan Şuşa şəhəri Azərbaycanın incisi hesab olunur


سرخاب
زمستان و ویروسی در راه است

**Təbrizdə çıxan ”Soxrab” qəzetində Azərbaycanın qədim Şuşa şəhəri haqqında geniş məqalə dərc olunub.**

Azərtac xəbər verir ki, məqalədə şəhərin tarixi, mədəniyyəti, işğal dövründə ermənilər tərəfindən dağıdılması barədə geniş məlumat verilib. Nəzərə çatdırılıb ki, 270 yaşı olan Şuşa şəhəri Azərbaycanın incisi hesab olunur və bu diyar ölkəmizə çox sayda dünyaşöhrətli mədəniyyət, ədəbiyyat, incəsənət xadimləri bəxş edib. Əfsuslar olsun ki, XX əsrin 90-cı illərinin əvvəllərində SSRİ rəhbərliyinin ermənilərə himayədarlığı sayəsində Qarabağ bölgəsində erməni separatizmi təşəkkül tapmağa başladı. Qarşısı alınmadığı üçün hadisələr daha da mürəkkəbləşdi. Həmin dövrdə SSRİ-nin süqutuna aparan tarixi-siyasi proseslər fonunda bəzi xarici qüvvələrin də dəstəyini alan Ermənistan Azərbaycan ərazilərinə hərbi qüvvə yeridərək işğala başladı və 1992-ci il mayın 8-də Şuşa işğal edildi. İşğal nəticəsində şəhərdə 195 Azərbaycan vətəndaşı xüsusi amansızlıqla qətlə yetirildi, 165 nəfər yaralandı. Onlardan 150 nəfəri əlil oldu, 552 körpə valideynlərini itirdi, 20 mindən artıq əhali doğma evini tərk edərək məcburi köçkün vəziyyətinə düşdü, 58 nəfər isə girov götürüldü. Eləcə də işğal dövründə şəhərdəki yüzlərlə tarix və mədəniyyət yadigarları, məscidlər və dini abidələr erməni vandalizmi nəticəsində dağıdıldı. Lakin Azərbaycan xalqı heç bir vaxt bu işğal faktı ilə razılaşmadı. İşğal altındakı torpaqların, o cümlədən Qarabağın incisi Şuşanın azad ediləcəyi günü səbirsizliklə gözlədi. Ulu Öndər Heydər Əliyev, daha sonra Prezident İlham Əliyev bütün çıxışlarında Şuşa ilə bağlı duyğu və düşüncələrini həmişə xalqla bölüşmüşdü. Onlar Şuşanın azad olunacağı günə inanırdılar və xalqı da hər zaman buna inandırırdılar. Ulu Öndər söyləyirdi ki, ”Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir qaladır, əziz bir abidədir”. Eləcə də onun ölkəmiz, Vətənimiz üçün xüsusi, vacib yeri olduğunu vurğulayaraq bildirmişdi ki, ”Şuşasız Qarabağ, Qarabağsız isə ümumiyyətlə Azərbaycan yoxdur”. Ulu Öndərin bu sözləri Şuşanın bizim üçün nə dərəcədə dəyərli olduğunun açıq və sərrast ifadəsi idi.

Nəhayət, 2020-ci il noyabrın 8-də 28 illik həsrət sona çatdı. Azərbaycan Respublikasının ədalət naminə apardığı 44 günlük Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusu Şuşa şəhərini azad etdi. Bu torpaqlarda yenidən Azan səsinin ucalmasına imkan yaratdı. Ermənistanın kapitulyasiyasına yol açan Şuşa qalibiyyəti xalqımızın qəhrəmanlıq ruhunun təntənəsinə çevrilərək tariximizə Zəfər Günü kimi həkk olunub.

# Dövlət büdcəsindən cəmi 8 rayona vəsait ayrılacaq

## 58 rayon və şəhər gələn il yerli gəlir və özünümaliyyələşdirmə prinsipi ilə işləyəcək



**”2023-cü ilin dövlət büdcəsi haqqında qanun layihəsinə əsasən, gələn il dövlət büdcəsindən cəmi 8 rayona vəsait ayrılacaq”.**

**Bu sözləri ”Şərq”ə açıqlamasında millət vəkili Vüqar Bayramov deyib. Deputat bildirib ki, 58 rayon və şəhər gələn il yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzləşdirilmiş xərclərdən vəsait almayacaq və özünümaliyyələşdirmə prinsipi ilə işləyəcək:** ”Dövlət büdcəsindən bu il 14 rayon vəsait alır. Gələn il həmin rayonlardan altısı özünü maliyyələşdirmə prinsipi ilə işləməli olacaqlar. Layihəyə əsasən, dövlət büdcəsindən rayonlara gələn il cəmi 12 milyon 306 min manat vəsait ayrılacaq. Ağdam, Balakən, Goranboy, Qax, Oğuz və Zərdab bu il dövlət büdcəsindən vəsait alsalar da belə 2023-də bu rayonlara pulun verilməsi nəzərdə tutulmayıb. Gələn il büdcədən vəsait alacaq 8 rayonun altısı Qarabağ və Şərqi Zəngəzurda yerləşir. Özünü maliyyələşdirəcək rayonların sayının artması dövlət büdcəsindən asılılığın aradan qaldırılması baxımından vacibdir. Bununla yanaşı, hazırda əsas hədəflərdən biri də iqtisadiyyatın balanslı inkişafının dəstəklənməsi və region ilə paytaxt arasındakı iqtisadi fərqin mərhələli şəkildə azaldılmasıdır. Bu baxımdan, həmin rayonlara daha çox sərmayə cəlbinin təşviq edilməsi çox vacibdir”.

**İsmayıl**

# İran hakimiyyətində hər kəsin əli millətin qanına batıb

**Bəzi dövlətlər 44 günlük Vətən müharibəsində qələbə qazanan Azərbaycanın zəfərini həzm edə bilmir. Ötən həftə İran Azərbaycanla sərhəddə hərbi təlimlər keçirdi, Qafanda Baş konsulluq açdı. Görünür, Azərbaycanın uğurları İranı ciddi narahat etməyə başlayıb.**

Eyni zamanda qeyd edək ki, İranda keçirilən etiraz aksiyalarının əhatəsi də genişlənir. On minlərlə güneyli soydaşımızın küçəyə çıxaraq İranın fars-molla rejiminə etiraz etməsi onları vəlvələyə salır.

Qeyd edək ki, İranda yaşayan azərbaycanlılara qarşı kütləvi zorakılıq, hüquqlarının kobud şəkildə pozulması, repressiya qurbanına çevrilməsi etiraz aksiyalarının baş tutmasını tətikləyib. İranın xüsusi xidmət orqanları dinc əhaliyə qarşı zor tətbiq edir. Artıq minlərlə insan həbs olunub, dəhşətli işgəncələrə məruz qalıb.



*“Türk dünyası cənubi azərbaycanlılara kömək göstərməlidir"*

**Güneyli soydaşlarımızın hüquqlarının tapdanması ilə bağlı ”Şərq”ə danışan təbrizli siyasi şərhçi Maşallah Rəzminin qənaətincə, İranda nə vaxta qədər ki, molla rejimi hakimiyyətdədir, orada yaşayan azərbaycanlıların hüquqları qorunmayacaq:** ”Soydaşlarımızın varlıqları, hüquqları ayaq altında qalır. Məmləkətə qaranlıqda yaşayan şəxslər hakimlik edir. Onlar da işıqda yaşamağı özlərinə xor görürlər. 1500 il əvvəlin qanunlarını zorla ictimaiyyətə qəbullandırmağa çalışırlar. İran hakimiyyətinin əhatəsindəki hər kəsin əli millətin qanına batıb.

Millət bu hökuməti istəmir. Hökumət də milləti məcburən sakitləşdirməyə çalışır, lakin bacarmır. Belə məqamda üçüncü qüvvənin meydana gəlməsinə gərək var. Nəticədə vəziyyətin dəyişməsi mümkündür.

Cənubi azərbaycanlılar özlərini türk dünyasına mənsub hesab edirlər. Türk dünyasının cənubi azərbaycanlılara kömək göstərməsinin vaxtı yetişib. Siyasi, diplomatik və digər formalarla Cənubi azərbaycanlıları himayə etmək lazımdır. Onlar təşkilatlansınlar və hakimiyyətin devrilməsində rol oynasınlar.

44 ildir, hüquqlarının bərpasına çalışsalar da, nail ola bilməyiblər. Soydaşlarımız şəxsi mənafelərini, hüquqlarını, müqəddəratlarını qorumaqdan ötrü molla rejimini devirməlidirlər. Sonra azərbaycanlılar bərabərhüquqa malik ola bilərlər”.

**Aygün Tahir**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması**



# Güclü lider, güclü ordu, güclü xalq

## Prezident İlham Əliyevin qətiyyətli mövqeyi, diplomatik uğurları insanlarımızda qələbəyə əminlik yaratdı

**İki il əvvəl Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi və rəşadətli Silahlı Qüvvələrin qəhrəmanlığı sayəsində Azərbaycan tarixinin ən şanlı və qürurverici səhifələri yazılıb.**

2020-ci il sentyabrın 27-də Ermənistanın növbəti hərbi təxribatı, bütün cəbhəboyu ərazilərdə hücuma keçməsi və birbaşa mülki əhalini hədəfə alması nəticəsində Azərbaycan Ordusu vətən uğrunda ölüm-dirim savaşına qalxdı.

İki gün sonra Azərbaycanın təcavüzkar və işğalçı Ermənistanı ağır məğlubiyyətə uğradaraq özünün əzəli və tarixi torpaqlarından qovmasının ikinci ildönümüdür. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin hərbi-siyasi və diplomatik addımları, ordumuzun hünəri və cəsarəti düşməni döyüş meydanından qaçmağa, mürəkkəb relyefi olan əraziləri bir güllə belə atmadan təhvil verməyə məcbur etdi. 44 günlük Vətən müharibəsində qazanılan möhtəşəm Zəfərin təməlində dayanan amillər sırasında ordu quruculuğu, mükəmməl müdafiə və təhlükəsizlik sisteminin formalaşdırılması, ən müasir silah arsenalının yaradılması mühüm yer tutur. Azərbaycanın Cənubi Qafqazda ən güclü orduya malik olması artıq bütün dünyada qəbul edilən gerçəklikdir ki, bu da İkinci Qarabağ müharibəsində real təsdiqini tapıb.

44 gün davam edən savaşda 5 şəhər, 4 qəsəbə və 286 kənd mənfur düşmən işğalından azad olundu. 44 gün davam edən Vətən müharibəsi, onun aparılma taktikası və döyüş texnikası, eləcə də qəhrəman Azərbaycan əsgərinin göstərmiş olduğu şücaəti hələ uzun illər danışılacaq, öyrəniləcək və örnək göstəriləcək. Hansı ki, dünyanın bir çox dövlətləri hazırda Azərbaycanın 44 günlük zəfər yolu tarixçəsini araşdırır və öyrənir.

Şanlı ordumuzun 8 noyabr tarixində Azərbaycanın qəlbi, qədim mədəniyyət ocağı sayılan Şuşa şəhərini işğaldan azad etməsi müharibənin qalibiyyət sevincini daha da yaxınlaşdırdı. Ona görə ki, Şuşa Azərbaycan xalqının bir neçə əsrlik mədəni irsinə malik mədəniyyət ocağı olmaqla bərabər, həm də çox böyük strateji əhəmiyyət kəsb edən bir şəhərdir. Təsadüfi deyil ki, məhz Şuşa Qalasının fəth edilməsi ilə mənfur düşmən məğlubiyyətini qəbul etdi. Cənab Prezidentin də qeyd etdiyi kimi: "Siyasi qələbənin qazanılmasında hərbi qələbəmiz müstəsna rol oynayır".

Sentyabrın 27-dən başlayaraq Azərbaycan Ordusunun həyata keçirdiyi əks hücum əməliyyatları zamanı doğma torpaq, Vətən uğrunda canını fəda edərək şəhidlik zirvəsinə yüksələnlər həm də öz adını xalqın tarixi yaddaşına həkk etdilər. Onlar Vətən, dövlət və xalq qarşısında öz borcunu sonadək ödəyib qəhrəmanlıq nümunəsi yaratdılar, milyonlarla insanın sevgisini, rəğbətini qazandılar.

Qeyd edək ki, Milli Məclis 8 Noyabr ? Zəfər Günü ilə əlaqədar bəyanat qəbul edib. Bəyanatı deputat Ramil Həsən oxuyub.

Bəyanatda deyilib:

"Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində əldə etdiyi Zəfər Azərbaycan tarixinin müstəsna səhifələrindən biridir. Son 200 ilə yaxın dövrdə ermənilərin həyata keçirdiyi etnik təmizləməyə birdəfəlik son qoyulması Azərbaycan tarixində yeni mərhələnin başlanmasına şərait yaradıb. Təəssüf ki, böyük Zəfərə gedən yol xalqımıza böyük itkilər hesabına başa gəlib. 1 milyondan artıq soydaşımız 30 ildən artıq qaçqınlıq və məcburi köçkünlük yaşamağa məcbur olub. I Qarabağ müharibəsində itkin düşən 4000-ə yaxın soydaşımızın taleyi hələ də məlum deyil. İşğal olunmuş ərazilərdə erməni vandalları bütün şəhər və kəndlərimizi dağıdıb. İşğal dövründə mədəniyyət abidələrimiz məhv edilib. Azad edilmiş ərazilərdə Ermənistanın mina terroru hələ də davam edir. Lakin düşmənin vəhşiliyi və qəddarlığı xalqımızın mübarizə əzmini qıra bilməzdi və qıra da bilmədi. Xalqımızı qalib xalqa çevirən bu Şanlı Zəfər etibarlı siyasi rəhbərlik fenomenidir. Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin siyasətini davam etdirərək Azərbaycanı dövrünün ən qüdrətli dövlətinə çevirib. Yenilməz döyüş əzmi və yüksək peşəkarlıq sayəsində Şuşa, digər şəhər və kəndlərimiz düşməndən təmizlənib. Daxili və xarici siyasətimiz xalqın maraqları və tələbatı üzərinə qurulub. 2020-ci il 10 noyabrda imzalanan üçtərəfli bəyanat Ermənistan və Azərbaycan arasında olan münaqişəyə son qoyub. Bu gün Qarabağ və Şərqi Zəngəzurda bərpa işləri görülür, infrastruktur yaradılır, yollar, körpülər, tunellər çəkilir, Zəngəzur dəhlizinin açılmasına hazırlıq görülür. Bütün bunlar Azərbaycanın daha da güclənməsini təmin edəcək. Milli Məclis Ermənistan tərəfini yaranmış tarixi fürsəti düzgün dəyərləndirməyə çağırır. Milli Məclis hesab edir ki, Azərbaycanın təklif etdiyi 5 prinsip əsasında sülh danışıqları prosesində yerinə yetiriləcək addımlar sülh sazişinin imzalanmasına kömək göstərəcək".

**"Qarabağın tacı olan Şuşa şəhərinin azad edilməsi dünya hərb tarixinə düşəcək unikal hərbi əməliyyatlardan olub"**

Millət vəkili Fəzail İbrahimlinin sözlərinə görə, sərkərdəlik məharəti, siyasi iradə, iqtisadi güc, beynəlxalq aləmdə yüksək imic, xalq-iqtidar birliyi kimi amillər bizi 30 ilə yaxın müddətdə işğalda qalmış torpaqlarımıza qaytardı. Vətən müharibəsində hər ötən gün həsrətlə gözlədiyimiz əzəli torpaqlarımıza, dədə-baba yurdumuza qayıtmaq ümidinin tezliklə reallığa çevriləcəyinə əminliyimizi daha da artırırdı: "Qazandığımız nailiyyətlərin müəllifi olan Azərbaycan Prezidenti İlham Əliyevin qətiyyətli mövqeyi, diplomatik uğurları idi insanlarda bu əminliyi yaradan. Dövlət başçısının ölkəmizin, eləcə də dünyanın ən yüksək kürsülərindən Azərbaycanın haqlı mövqeyini ifadə edən çıxışları, ölkəmizlə bağlı olan həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, eləcə də dünyanın nüfuzlu KİV-lərinə verdiyi müsahibələri erməninin xislətini, mənfur siyasətini, işğalçılıq siyasətini bir daha ortaya qoyub. 44 gün ərzində işğal altında olan torpaqları azad etmək, erməni mifini darmadağın etmək güclü Azərbaycan haqqında təsəvvürləri daha da genişləndirib. Bu uğurların qazanılmasında güclü lider və onun yaratdığı güclü ordu xüsusi qeyd olunmalıdır. Müasir silahlarla təchiz olunmuş, yüksək döyüş ruhlu əsgər və zabitlərimizin vətənpərvərlik hissləri qələbəmizi şərtləndirən amillər sırasındadır. Əlbəttə ki, məqsədə doğru inamlı addımlar Azərbaycanın tarixinə Qalib ölkə adını həkk etdi və bu tarixdə görünməyən bir qələbə idi.

44 günlük Vətən müharibəsində qazanılan şanlı Qələbə həm də xalqımızın birliyinin, yenilməz gücünün nümayişi oldu. Müharibə başlayan andan etibarən vəzifəsindən, statusundan, yaşından asılı olmayaraq, hər kəs Vətən uğrunda könüllüyə çevrildi. Ali Baş Komandanın "dəmir yumruğ"una dönərək düşmənin başını əzdi. Döyüşdə oğlu şəhid olan ana-atalar belini bükmədi, başını dik tutub "Vətən sağ olsun!" dedilər...

Noyabrın 8-də 28 illik həsrətdən sonra Azərbaycan xalqı üçün böyük əhəmiyyət kəsb edən və rəmzi məna daşıyan Şuşa şəhəri işğaldan azad edilib. Qarabağın tacı olan Şuşa şəhərinin azad edilməsi dünya hərb tarixinə düşəcək unikal hərbi əməliyyatlardan olub. Azərbaycanın hərbi sahədə qazandığı qələbələr, xüsusilə Şuşanın düşmən işğalından qurtarılması müharibənin taleyində həlledici rol oynayıb. Bütün bunlar Ermənistanın öz məğlubiyyətini etiraf etməsi və kapitulyasiyası ilə nəticələndi. Bu Qələbə 200 illik erməni təxribatlarına verilən ən layiqli cavabdır".

Millət vəkilinin sözlərinə görə, Prezident İlham Əliyevin sərəncamı ilə Şuşa şəhərinin işğaldan azad edildiyi günün Zəfər Günü elan edilməsi Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyinin, "Qarabağ münaqişəsi" deyilən bir terminin tarixə qovuşduğunun, ərazi bütövlüyümüzün təmin olunduğunun, bir sözlə, Ali Baş Komandan, Prezident İlham Əliyevin "dəmir yumruq" əməliyyatı ilə Müzzəfər Ordumuzun rəşadətli əsgər və zabitlərimizin qəhrəmanlığının bütün dünyaya göstəricisidir. Buna görə də 8 Noyabr tarixi çox böyük Şərəf və Qürur bayramıdır və hər zaman böyük qürur və sevinc hissi ilə qeyd ediləcək".

**Qazanılan tarixi Zəfərin ikinci ildönümü münasibətilə "Şərq"ə danışan politoloq Natiq Miri isə deyib ki, 44 günlük müharibədə qələbə ilə Azərbaycan tək Qarabağın azad olunması ilə məhdud düşünən bir dövlətdən çıxaraq, daha böyük hədəfləri olan bir dövlətə çevrilməyə başlayıb:** "44 günlük müharibədə ən böyük qazancımız millət olaraq özümüzü qazanmağımız oldu. 200 illik torpaq itkilərindən sonra ilk dəfə olaraq itirilən ərazilərimizi qaytara bildik. Bu zəfər nəticəsində millətimiz də özünə qayıtdı. Millətimiz əsgəri, dövləti ilə birlikdə bir ürək ola bildi və bu proses davamlıdır. Burada ən böyük qazanc dövlətin ərazisinin bütövlüyüdür. Amma ərazi bütövlüyünün təmini bir işdir, bütün ərazilərdə Azərbaycanın suveren dövlət hüquqlarını təmin etmək isə bir məsələdir. Hədəfdə olan əsas məsələlərdən biri də Qarabağın erməni-lər yaşayan ərazilərində suveren hüquqlarımızın təmin olunmasıdır.

44 günlük müharibə ilə cəmiyyət və xalq olaraq göstərə bildik ki, öz torpağımız uğrunda rahatlıqla ölə bilərik. Millətin formalaşması üçün bu çox vacib mənəvi amillərdən biridir. Çünki Vətən torpağı qanla sulandığı təqdirdə Vətən olur.

Ermənilər geosiyasi alət rolunda çıxış edirlər. Dünya gücləri də hər zaman Ermənistandan bir alət olaraq istifadə edib, bu gün də istifadə edirlər. Ona görə də bu etnosun dövlətçilik şəklində var olmasının perspektivini görmürəm. Bunu üzə çıxaran dövlət isə Azərbaycan oldu. Artıq millətimiz oyanıb. Azərbaycan anladı ki, Türkiyə və digər türk cümhuriyyətlərindən başqa ölkəmizi ciddi şəkildə dəstəkləyən güc yoxdur. Ona görə də bütün türk dövlətlərində toparlanma prosesi gedir. Türk birliyinə aparan Şuşa Bəyannaməsi də ən böyük qazancımızdır. Artıq Azərbaycan tək Qarabağın azad olunması ilə məhdud düşünən bir dövlətdən çıxıb, daha böyük hədəfləri olan bir dövlətə çevrilmək üzrədir. Azərbaycanın düşmənlərə peşkəş edilən Vətən torpaqları var. Bu torpaqların bir hissəsi də Ermənistandadır. Gələcək perspektivdə Ermənistandan bu torpaqlarımızı geri almaq zamanı da yetişəcək. Ona görə də artıq millət və dövlət olaraq daha böyük düşünməyə və millətin özünə qayıdışını təmin etmək haqqında düşünməyə başlamışıq.

2020-ci il 27 sentyabr tarixi Azərbaycan tarixində özünəqayıdışın təməli, dönüşü kimi qeyd olunacaq. Zaman keçəcək, Azərbaycan bugünkündən daha böyük Azərbaycan olacaq".

**Şəymən Bayramova**

# Hər kəsin borcudur

## Dövlət ehtiram, hörmət göstərir



***Vətən müharibəsi qazilərinin dövlət qulluğuna qəbul edilməsi sevindirici haldır***

**Zəfər Gününün ildönümü ərəfəsində Milli Məclisin sədri Sahibə Qafarovanın iştirakı ilə parlamentdə dövlət qulluğuna qəbul edilmiş bir qrup əməkdaşın andiçmə mərasimi keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumatda bildirilir ki, tədbirdə əvvəlcə Azərbaycanın Dövlət Himni səsləndirilib.**

Mərasimdə çıxış edən Milli Məclisin sədri Sahibə Qafarova bildirib ki, Prezident İlham Əliyevin kadr siyasətinə uyğun olaraq ölkədə peşəkar və bacarıqlı insanlara, xüsusilə də gənclərə lazımi şərait yaradılır: "Digər dövlət qurumlarında olduğu kimi, Milli Məclisdə də işgüzar gənclər dövlət qulluğuna qəbul olunur. Fərəhli haldır ki, bu gün parlamentdə dövlət qulluğuna qəbul olunanların arasında 44 günlük Vətən müharibəsində şücaət göstərdiklərinə görə orden və medallarla təltif olunmuş 3 qazi var. İnanırıq ki, dövlət qulluğunda da onlar göstərilən etimadı doğruldacaq, dövlətə və Vətənə sədaqətlə qulluq edəcəklər".

Sonra dövlət qulluğuna qəbulla bağlı andiçmə mərasimi keçirilib. Qazilər - Nicat İlqar oğlu Abdurrahmanov, İzzət Zakir oğlu Balacayev və Bəşir Nəbi oğlu Hüseynzadə and içiblər. Milli Məclisin sədri Sahibə Qafarova onlara xidməti vəsiqələrini təqdim edərək dövlət qulluğunda gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

**Vətən müharibəsi qazilərinin dövlət qulluğuna qəbul edilməsini sevindirici hal hesab edən ehtiyatda olan polkovnik Şair Ramaldanov "Şərq"ə açıqlamasında müharibə iştirakçılarına qayğının dövlət siyasətinin əsasını təşkil etdiyini dedi:**

- Azərbaycan dövləti, Azərbaycan xalqı, ümumən cəmiyyətimiz qazilərə hər zaman böyük ehtiramla, hörmətlə yanaşır, onlara minnətdarlıqlarını səmimi şəkildə bildirirlər. Cənab Prezident İlham Əliyev çıxışlarında, xalqla görüşləri zamanı birmənalı şəkildə vurğulayır ki, şəhid ailələrinə, müharibə qazilərinə dövlət qayğısı vacibdir. Bu, dövlət siyasətində də özünü göstərir. İcra hakimiyyətlərində qazilərlə iş şöbələri yaradılıb. Müraciət edənlərin işlə təmin edilməsinə səy göstərilir. Bundan başqa, qazilərə təsərrüfat obyektləri qurmaqda da köməklik göstərilir. "DOST" Mərkəzinin qazilərlə bağlı xüsusi proqramı mövcuddur. "Yaşat" Fondu öz tərəfindən qazilərin həm sağlamlığının bərpası, müalicə, reabilitasiyalarını həyata keçirir, həm də qazilərin təhsili, peşələrə yiyələnməsinə yardım edir. Onlara hazırlıq kursları keçilir. Ali təhsilli, müəyyən peşəyönümlü qazilər elan edilən vakansiyalara ilk növbədə dəvət edilir, onlara iş təklif olunur. Müdafiə Nazirliyində də bu iş aparılır. Qazilərin işlə təmin edilməsinə xüsusi diqqət ayrılır. Dövlət qulluğuna qəbulda da biz bu siyasəti görürük. 3 qazinin Milli Məclisdə dövlət qulluğuna qəbul edilməsi bu siyasətin uğurla aparıldığını göstərir. Müharibə qazilərinə yüksək dövlət qayğısı özəl sektora da müsbət təsir edib. Özəl sektor da qazilərin işlə, müxtəlif avadanlıqlarla təmin edilməsinə, həmçinin maddi yardımlar edilməsinə dəstək verir. Qazilərə qayğı və onların ehtiyaclarının qarşılanması dövlət siyasəti olmaqla yanaşı, həm də ümumxalq dəstəyidir. Çünki hər birimiz Vətən müharibəsində qazanılan qələbəyə görə, ilk növbədə şəhidlərə və qazilərə borcluyuq. Onların ehtiyaclarını qarşılamaq hər kəsin vətəndaşlıq borcudur.

**Məlahət Rzayeva**



# İnflyasiya sürətlənir

## Təqaüdlərin artırılması tələbələrin güzəranına az təsir edəcək

**Dövlət büdcəsinin vəsaiti hesabına doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə müəyyən edilən təqaüdlərin məbləğləri artırılıb.**

Prezident İlham Əliyev "Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə təqaüdlərin verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 14 fevral tarixli 961 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" sərəncam imzalayıb.

Sərəncama əsasən, dövlət büdcəsinin vəsaiti hesabına doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə müəyyən edilən təqaüdlərin məbləğləri artırılıb.

**Bu artımın ən yaxşı halda ərzaq inflyasiyanın kompensasiyası olduğunu deyən iqtisadçı-ekspert Natiq Cəfərli "Şərq"ə deyib ki, hətta ərzaq inflyasiyası 21.8 faizlə bu artımdan daha yüksəkdir:** "Ona görə də təqaüdlərin artırılması yolu ilə, sosial yükün azaldılması yetərli deyil. Gələn ilin əvvəlində isə əmək haqlarının və təqaüdlərin ümumi artımı ilə bağlı qərar veriləcəyi gözlənilir.

Amma bunlar da yetərli olmayacaq. Ona görə ki, təqaüdlər və maaşlar artdıqca, inflyasiya da sürətlənir. Yəni əhalinin gəliri artır, qiymətlər də artmalıdır gözləntisi yaranır. Bu səbəblə də yalnız tələbələrin təqaüdlərinin 20 faiz artırılması kifayət etmir.

Sözügedən məsələ ilə paralel olaraq, qiymətlərin aşağı salınması ilə bağlı addımlar da atılmalıdır. Qiymətlərin tənzimlənməsinin ən yaxşı yolu isə gömrük rüsumlarının və vergi dərəcələrinin azaldılmasıdır.

Bu əhalinin aztəminatlı təbəqəsinə və əsasən də tələbələrə müsbət təsir göstərəcək. Çünki onlar da alış-veriş edərkən hamımız kimi 18 faiz əlavə dəyər vergisi ödəyirlər. Əlavə dəyər vergisinin 18 faizdən 2 faizə salınması, qiymətləri aşağı çəkə bilər. Beləliklə də təqaüdlərin 20 faiz artımının onların həyatında müsbət təsirini görə bilərik".

**Nihat Müzəffər**

# Tarixi abidələrimiz dağıdılıb

## Təəssüf ki, cənub qonşumuz müharibə zamanı rəsmi İrəvanla bağlı heç bir ciddi və sərt açıqlamalar verməyib



**"Hər şey göz qabağındadır. Necə deyərlər, elin gözü tərəzidir. Cəmiyyətimiz, insanlarımız İranın ermənipərəst siyasətinə qiymət vermək iqtidarındadır".**

*Bu sözləri "Şərq"ə açıqlamasında politoloq İlqar Vəlizadə deyib. Onun sözlərinə görə, bu davranışlar molla rejiminin anti-Azərbaycan mövqeyinin təzahürüdür:*

"Təəssüf ki, İran siyasi rəhbərliyi bütün addımları ilə Ermənistan maraqlarının rəsmi Tehran hakimiyyəti üçün hər şeydən üstün olduğunu deməyə çalışır.

Cənub qonşumuz müharibə zamanı rəsmi İrəvanla bağlı heç bir ciddi və sərt açıqlamalar verməyib. Düşmən ölkə həm öz ərazisində, həm də işğal olunmuş torpaqlarda Azərbaycanın tarixi abidələrini dağıdıb. Lakin molla dövləti buna reaksiya verməyib.

Həmin əməllər əfsuslar olsun ki, indi də davam etdirilir. İranda çoxmilyonlu Azərbaycan əhalisi yaşayır. Güneyli soydaşlarımız məlum siyasətdən narahatdırlar.

Ara-sıra öz etiraz səslərini ucaldırlar. Bu da Tehran rejiminin siyasi dairələrinin apardığı siyasətin öz xalqının mənafeyinə belə xidmət etmədiyi anlamına gəlir".

*Qeyd edək ki, İran parlamentinin sədri Məhəmməd Baqir Qalibafın Azərbaycana gözlənilən səfəri təxirə salınıb. Səbəb isə göstərilməyib. Rəsmi Tehran tərəfi son anda səfərdən imtina edir, amma rəsmi İrəvanla qarşılıqlı səfərlərinin sayı artır. Molla rejimi əli müsəlmanların qanına batan Ermənistan rəsmilərinə qucaq açır.*

**Sücayət Mehti**

# Azərbaycana gələn iranlıların sayı kəskin azalıb

## Çünki onlar öz ölkələrində böyük dəyişikliyin bir parçasına çevriliblər

**İrandan Azərbaycana gələnlərin sayı azalıb. Bu ilin oktyabrında İrandan ölkəmizə 15 257 nəfər gəlib. Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 12 faiz azdır.**

Belə ki, 2021-ci ilin oktyabrında ölkəmizə 17 353 nəfər gəlmişdi.

Qeyd edək ki, ötən aylara nəzər saldıqda ilk dəfə İrandan gələnlərin sayı ötən illə müqayisədə azalıb.

Miqrasiya məsələləri üzrə ekspert Azər Allahverənov "Şərq"ə açıqlamasında deyib ki, dövlətlərarası münasibətlərin, siyasi və iqtisadi proseslərin miqrasiya mübadiləsinə birbaşa təsiri danılmazdır: "Əslində İranla Azərbaycan arasındakı miqrasiya axını konkret bir rəqəm ətrafında sabitləşmir. Müxtəlif zamanlarda ölkəyə gələn iranlıların sayında ciddi artım, bəzən isə kəskin azalmalar müşahidə edilir. Xatırlayırsınızsa, pandemiyadan əvvəl Novruz bayramı münasibəti ilə Azərbaycana turistik səfər edən iranlıların sayı 100 mindən yuxarı olurdu. Eləcə də Ramazan və Qurban bayramı ərəfəsində biz bu cür artımların şahidi olurduq".



Ekspertin sözlərinə görə, cəmiyyətlərdə siyasi və iqtisadi durum sabit qaldıqda insanlarda istirahət və turistik səfər ab-havası yüksək olur: "Amma bu gün İranda daxili çaxnaşmalar, hakimiyyət əleyhinə çıxışlar hökm sürür. Və ölkə əhalisi tamam fərqli ab-havaya köklənib. Artıq İran vətəndaşları əvvəlki kimi xarici ölkələrə turistik səfərlər etmək həvəsində deyil. Azərbaycana gələn iranlıların da demək olar 95 faizi məhz istirahət və turistik məqsədlər üçün səfər edirdilər. Bu gün isə insanlar öz məzuniyyət hüquqlarından hansısa xarici ölkəyə turistik səfər etmək üçün istifadə etmirlər. Xüsusən də əhalinin demokratiya və azad prinsiplər uğrunda mübarizə aparan kəsimi ölkədə qalıb hakimiyyət əleyhinə aksiyalara qoşulmağa üstünlük verirlər. Yəni bir neçə ay əvvələ qədər məzuniyyət götürüb hansısa xarici ölkədə istirahət etmək, turizm obyektlərini gəzmək istəyən iranlılar bu gün öz məzuniyyət günlərini İranın iri şəhərlərində keçirilən mitinqlərdə çıxış edirlər".

**Şəymən**

# Mütləq ixtisaslı kadrlar hazırlanmalıdır

## Şagirdlərin nailiyyətləri yalnız beynəlxalq qiymətləndirmə proqramı çərçivəsində öyrənilmir

**"Təhsil sisteminin və siyasətinin mahiyyəti barədə cəmiyyətimizdə məişət xarakterli müzakirələrdən dərin təhsil siyasəti mövzularına keçməliyik".**

*Bunu Təhsil naziri Emin Əmrullayev "Təhsildə Yeni Çağırışlar" III Beynəlxalq Forumunda deyib.*

O bildirib ki, ölçülə, dinamikanı göstərə bilən indikatorlara fokuslanmaq lazımdır: "Əks halda əhəmiyyətli olmayan fərdi fikirlərin müzakirəsindən başqa bir şeylər olmayacaq. Təhsil sistemimizin bu vaxta qədər qəbul etdiyi ən yaxşı qərarlarından biri beynəlxalq qiymətləndirmələrdə iştirakımızdır".

**Təhsil eksperti Kamran Əsədovun "Şərq"ə açıqlamasında deyib ki, dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsi göstərir ki, təhsil cəmiyyətdə siyasi və sosial-iqtisadi sabitliyin təmin edilməsində, insan kapitalının formalaşmasında həlledici rol oynayır.** Yüksək təhsilli insanlar cəmiyyətdə qarşılıqlı etibarın güclənməsini, sivil və etik normalara riayət olunmasını təmin edir, həyatda daha doğru, ədalətli, sağlam və konstruktiv mövqe nümayiş etdirir, təhsil səviyyəsi aşağı olan insanlar isə bir çox hallarda asanlıqla ayrı-ayrı qrup maraqlarının alətinə çevrilə bilirlər: "Araşdırmalar göstərir ki, ümumi təhsil müddətində şagirdlərin bilik və bacarıqlarının səviyyəsi təhsil illərinin sayından daha çox öyrənmə prosesinin keyfiyyəti ilə müəyyən olunur. Bu səbəbdən də dünyanın inkişaf etmiş ölkələrində təhsilin keyfiyyətinin təminatı dövlət siyasətinin əsas istiqamətlərindən biri hesab edilir. Ona görə son illərdə



***" Məktəbdaxili milli qiymətləndirmələr aparılır və onların nəticələri etibarlı mənbə hesab olunur"***

beynəlxalq təcrübədə təhsilin keyfiyyətini ölçmək məqsədilə müxtəlif məzmunlu qiymətləndirmə proqramlarının nəticələrindən istifadə daha da aktuallaşıb. Müasir dövrdə 15 yaşlı şagirdlərin həyati bacarıqlarını qiymətləndirən PISA (Beynəlxalq Şagird Qiymətləndirilməsi Proqramı), şagird nailiyyətlərini kurikulum üzrə ölçən TIMSS (Riyaziyyat və Təbiət Elmləri üzrə Beynəlxalq Qiymətləndirmə Proqramı) və PIRLS (Oxu Bacarıqlarının keyfiyyətini tədqiq edən Beynəlxalq Qiymətləndirmə Proqramı) proqramlarının nəticələri təhsildə beynəlxalq keyfiyyət indikatorları kimi qəbul olunur.

Beynəlxalq qiymətləndirmənin nəticələri əsasında aparılan təhlillər göstərir ki, hər bir ölkənin iqtisadi artımı ilə həmin ölkədə təhsilin keyfiyyəti arasında sıx bağlılıq mövcuddur. Məsələn, PISA üzrə nəticələrin 15 faiz yüksəlməsi ÜDM-nin iki faiz artmasını şərtləndirir (World Bank Education Strategy 2020, April 2011).

Son illərdə ölkəmizdə şagirdlərin nailiyyətləri yalnız beynəlxalq qiymətləndirmə proqramları çərçivəsində öyrənilmir, həm də məktəbdaxili milli qiymətləndirmələr aparılır və onların nəticələri etibarlı mənbə hesab olunur".

K.Əsədovun sözlərinə görə, beynəlxalq qiymətləndirmə ölkənin təhsil səviyyəsini digər dövlətlərlə müqayisə etmək imkanı yaradırsa, qiymətləndirmənin ikinci əsas istiqamətlərindən biri olan milli qiymətləndirmə tədqiqatları təhsil sahəsində perspektivlərin müəyyənləşdirilməsinə və proqnozların verilməsinə xidmət edir: "Ölkənin təhsil sisteminin Avropa təhsil məkanına inteqrasiyasını sürətləndirmək məqsədilə 2004-cü ildə Azərbaycan postsovet məkanında PISA proqramının sınaq mərhələsinə qoşulan ilk ölkələrdən biri oldu. Heç şübhəsiz, PISA-2006 beynəlxalq qiymətləndirmə proqramının əsas mərhələsində iştirak edərkən bu bilik yarışında şagirdlərimizin yüksək nəticə göstərəcəklərini gözləmirdik. Səbəblər çox idi, əsas səbəb isə ölkədə tətbiq olunan təhsil proqramlarının şagirdlərdə idraki, həyati və tətbiqi bacarıqların formalaşdırılmasına yönəldilməməsi, təhsil prosesi iştirakçılarının beynəlxalq qiymətləndirmə təcrübəsi ilə tanış olmaması idi. Lakin bu addım beynəlxalq tələb və standartları mənimsəmək, şagird və müəllimlərimizi, təhsil ictimaiyyətini bu prosеslə tanış etmək, şagirdlərimizi psixoloji cəhətdən həmin bilik yarışına hazırlamaq və təcrübə qazanmaq baxımından çox faydalı idi. Məhz bu proqramda iştirakın nəticəsidir ki, artıq dərslik və dərs vəsaitlərimizdə, qiymətləndirmə vəsaitləri toplusunda idraki bacarıqların inkişaf etdirən qiymətləndirmə nümunələrinə geniş yer verilir, summativ qiymətləndirmə vasitələrinin böyük əksəriyyəti həmin tələblər gözlənilməklə tərtib edilir. Artıq buraxılış imtahanlarında istifadə olunan sual kitabçalarındakı hər bir tapşırığın məqsədi də konkret bilik və bacarığın yoxlanılmasına xidmət edir".

**Təhsil ekspertinin fikrincə, beynəlxalq təcrübə göstərir ki, hər hansı qiymətləndirmənin nəticələri təhsilin keyfiyyəti haqqında etibarlı mənbə rolunu o zaman oynaya bilər ki, oradakı qiymətləndirmə vasitələri bütün variantlarda testologiyanın elmi-nəzəri əsaslarına uyğun olaraq eyni çətinlik dərəcəsinə malik olsun:** "Qiymətləndirmə ilə bağlı qarşıda duran ən mühüm vəzifələrdən biri də bu sahə üzrə ixtisaslı kadrların hazırlanmasıdır. Təhsil nazirliyinin beynəlxalq qiymətləndirmə üzrə bilik və bacarıqları məişət səviyyəsindən yuxarı olmadığı üçün onlarla bu istiqamətdə müzakirələr aparmaq hələ ki, tezdir".

**Şeymən Bayramova**



# Co Bayden üsyan etdi

## İlon Maskın satın aldığı "Tvitter" dünyaya yalanlar yayır

**ABŞ Prezidenti Co Bayden "Tvitter" kompaniyasının sahibkar İlon Mask tərəfindən alınmasından narahat olduğunu, eyni adlı sosial şəbəkənin "bütün dünyaya yalanlar püskürən" bir alət olduğunu söyləyib.**

Reuters agentliyi xəbər verir ki, Ağ evin başçısı bunu cümə günü Çikaqo şəhərində (İllinoys ştatı) keçirilən seçkiqabağı tədbirdə çıxış edərkən bildirib. "Hazırda hamımızı narahat edən budur: İlon Mask bütün dünyaya yalanlar yayan, püskürən bir alət götürür və satın alır", - Co Bayden çıxışında belə deyib.

İlon Mask "Tvitter"i 44 milyard dollara almaq barədə müqaviləni oktyabrın 27-də bağlayıb. Sosial şəbəkənin yeni sahibinin istifadəçiləri həmişəlik bloklamaq praktikasına son qoyacağı gözlənilir. O, həmçinin kontentin moderasiyası məsələsini araşdıracaq xüsusi şura yaratdığını elan edib.

Oktyabrın 31-də ABŞ-ın Qiymətli kağızlar və birjalar komissiyasının məlumat bazasında yerləşdirilən sənədlərə əsasən, milyarder kompaniyanın direktorlar şurasını buraxmağa hazırlaşır. O, "Tvitter"i satın aldıqdan dərhal sonra bir sıra rəhbər işçiləri işdən çıxarıb.

*Bloomberq agentliyinin yaydığı xəbərə görə, sahibkar işçi ştatını təxminən yarıya qədər azaltmağı planlaşdırır. Cümə günü kompaniyada əməkdaşların ilk ixtisarı başlayıb.*

# 2 nəfər ölüb

## Son sutkada 27 nəfər koronavirusa yoluxub




**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına son sutkada 27 yeni yoluxma faktı qeydə alınıb, 53 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 2 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 823 496 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 813 254 nəfər müalicə olunaraq sağalıb, hazırda 287 aktiv xəstə var. Bu günə qədər 9 955 nəfər vəfat edib.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 1 961, bu günə qədər isə ümumilikdə 7 331 317 test icra olunub.

# Böyük dəyər...

## Barış Mançonun həyatı film olacaq

**Mahnıları, imza atdığı proqramları və rəngarəng həyat yolu ilə 7-dən 77-yə hər kəsin könlünü fəth edən Barış Mançonun həyatı gümüş pərdəyə gətirilir.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, "Dönence"dən "Sarı Çəkməli Mehmet Ağa"ya qədər unudulmaz mahnılar yazan, televiziya proqramı ilə Türkiyə ilə dünya arasında mədəni körpü quran, Türkiyənin ən mühüm dəyərlərindən biri olan Barış Mançonun həyatı film olacaq.



1999-cu ildə 56 yaşında dünyasını dəyişən və on minlərlə insanın iştirakı ilə əbədiyyətə yola salınan sənətkarın obrazını canlandıracaq ad və rejissor kürsüsündə kimin oturacağı hələlik bəlli deyil.

Timur Savcı və Cemal Okan sənətçinin həyatını lentə almaq üçün işə başlayıblar.

Barış Mançonun musiqi karyerasından bəhs edən filmin çəkilişlərinə 2023-cü ildə başlanması planlaşdırılır.

2 yanvar 1943-cü ildə İstanbulda anadan olan Barış Manço anası, TSM sənətçisi Rikkat Uyanıkın sayəsində musiqiyə aşiq olub.

İlk gitara təlimini ruhani atası Muhittin Kocabaşdan alan sənətçi 1962-ci ildə ilk "45-lik" albomunu buraxıb.

1963-cü ildə Qalatasaray liseyindən sonra universitetdə oxumaq üçün Fransaya gedib. 1968-1969-cu illər arasında Türkiyədə "Kaygızlar" qrupu ilə birlikdə 8 bal toplayıb.

1970-ci ildə "Barış Manço Ve..." adlı yeni qrupu ilə çıxardığı "Dağlar Dağlar"la kütləyə tanınıb və böyük satışlar əldə edib.

1972-ci ildə karyerası boyu birlikdə çalışdığı "Kurtalan Ekspres" qrupu ilə bir araya gəlib. O, mahnıları ilə yanaşı, rəngarəng kostyumları və aksesuarları ilə diqqət çəkib.

18 iyul 1978-ci ildə Lale Çağlar ilə ailə həyatı qurub və bu evlilikdən iki oğlu olub. O, yaradıcılığı boyu uşaqlar və gənclər üçün çoxlu mahnılar yazıb, mahnılarında tez-tez atalar sözü və deyimlərə yer verib.

1988-ci ildə başlayan "7dən 77ye" televiziya proqramı ilə bir nəslin həyatında iz buraxıb. 1999-cu il fevralın 1-də infarkt nəticəsində 56 yaşında dünyasını dəyişib...

**Turan**

# Tələbələrə azadlıq, sərbəstlik verilməlidir

## Bolonya sisteminə qoşulmuş universitetlərdə qayıb sistemi ləğv olunmalıdır



**Bolonya sisteminə görə, tələbələr universitetdə məcburi saxlanılmır. Onlar istənilən vaxt mühazirələrə gələ, semestrin sonunda isə imtahanlarını verə bilərlər. Azərbaycanın da 10 ildən bəri qoşulduğu Bolonya sistemində qayıb məsələsi yoxdur. Lakin Azərbaycanda qayıb sistemi hələ də mövcuddur.**

Bolonya təhsil sistemində tələbələrə dərsdə iştirak etmədiklərinə görə, qayıb yazılmırsa, bəs bu hal bizim ali təhsil müəssisələrimizdə niyə tətbiq olunur?

Məsələ ilə bağlı Trend-in suallarını cavablayan Elm və Təhsil nazirliyi yanında İctimai Şuranın üzvü, Azərbaycan Gənc Alim, Doktorant və Magistrlər Cəmiyyətinin sədri, fəlsəfə doktoru İlqar Orucov qeyd edib ki, bolonya sistemində tələbələr dərslərdə məcburi saxlanılmır və ümumiyyətlə, tələbəyə qayıb yazılması məsələsi yoxdur.

"Lakin Azərbaycanda bu istiqamətdə bir qədər fərqlilik mövcuddur. Tələbə dərsə gəlməyəcəyi təqdirdə ona qayıb yazılır. Əslində bu bolonya sisteminə qoşulan universitetlər üçün doğru deyil. Bir çox hallarda ekspertlər bunu tələbənin sərbəstlik və azadlığının əlindən alınması kimi qiymətləndirirlər. Əgər tələbə qayıb limitini keçsə, o imtahana buraxılmır. Əvvəlcə biz bu düşüncəni formalaşdırmalıyıq. Biz bolonya sisteminə qoşulmuşuqsa, onun bütün tələblərinə əməl etməliyik. Ölkəmizdə qayıb limiti yığışdırılsa, tələbə dərsə gəlməyəcək, bu da öz növbəsində xaos yarada bilər. Biz tələbələrə bu azadlığı verməzdən əvvəl onlarda bu təfəkkürü formalaşdırmalıyıq. Tələbə başa düşməlidi ki, bu azadlıqdan digər məqsədlər naminə istifadə etməməlidir", - deyə o bildirib.

İ.Orucov həmçinin qeyd edib ki, baxmayaraq ki, bolonya sisteminə ziddir, qayıb sisteminin tətbiq olunması tələbələrin lehinə olan qərardır.

"Birbaşa bu sistemin tələbləri icra edilsə, kütləvi dərsdən yayınmalar, imtahandan kəsilmə halları olacaq. Tələbələrə azadlıq, sərbəstlik verilməlidir, lakin onlar da bu qərardan sui-istifadə etməməlidir.

Elə tələbələr var ki, kifayət qədər çevikdir və universitetə gəlmədən də auditoriyada keçilən dərsi kənar resurslardan öyrənib imtahandan keçə bilər. Biz bolonya sisteminə qoşulsaq da, tam olaraq o sistemi yarada bilməmişik. Bundan əlavə biz ilk öncə universitetlərdə yaxşı tədris sistemi formalaşdıra bilməmişik", - deyə o əlavə edib.



# Görülən işlərin faydası yoxdur

## "Vaxtı keçmiş mal birbaşa mağazadan məhvetmə poliqonuna getməlidir"

**"AQTA-nın apardığı istehlaka yararsız məhsulların məhv edilməsi kimi analoji işlər dəryada bir damladır". Bu sözləri "Şərq"ə Azad İstehlakçılar Birliyinin (AİB) sədri Eyyub Hüseynov deyib. Onun sözlərinə görə, hər gün on tonlarla ərzaq məhsullarının yararlılıq müddəti keçir:**

"Alqoritmə uyğun olaraq, onlar mağazalarda toplanır. Distribüterə qaytarılır. Daha sonra istehlakçı şirkətə yönəldilir. Əksər halda istehlakçı şirkət məhsulları ayrı qablara doldurur, tarixini dəyişir, yenidən marketlərə verir. Bu dövriyyə illərdir, davam edir. Çox az istehlakçı şirkətlər öz mallarının ictimai məhvini həyata keçirmək istəyirlər. Təsadüfi deyil ki, 2 ay öncə AİB və AQTA istehsalçı şirkətin öz təşəbbüsü ilə 100 tondan artıq malın Sumqayıt poliqonunda məhv olunmasında iştirak edib. Çox az miqdarda belə şirkətlər var. Təəssüf ki, digərləri onlara qoşulmurlar. Vaxtı keçmiş mal birbaşa mağazadan məhvetmə poliqonuna getməlidir. İstehlakçı hüquqlarını qoruyan qanunların zəif olduğu bir şəraitdə belə məhsullar çoxdur. Düşünürəm ki, xüsusi bir Məhdud Məsuliyyətli Cəmiyyəti (MMC) yaradılmalıdır. O, gündəlik AQTA-nın təşəbbüsü ilə vaxtı keçmiş malları yığıb, məhv etməli, yaxud da başqa bir məhsula çevirməlidir. Təəssüf ki, bu proseslər Azərbaycanda görülmür".

*Qeyd edək ki, yeddi tondan artıq istehlaka yararsız və istehsal müddəti bitmiş məhsullar məhv edilib. Bu barədə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (AQTA) məlumat verib.*

**Sücayət Mehti**



# Şampunların 70 faizində xərçəng yaradan maddə var

## Benzin qoxusu verən bu toksiki maddə benzoldur

**Isitfadə etdiyimiz şampunların 80%-də qorxulu kanserogen maddələr var.**

"Medicina" xəbər verir ki, internetmağazalarda satılan quru şampunların 70%-də, maye şampunların 30%-də kanserogen maddə aşkarlanıb.

Müntəzəm olaraq bunlardan istifadə zamanı həmin maddənin təsirindən sinirlər zədələnir, leykemiya və bəzi şiş xəstəlikləri inkişaf edə bilir. Benzin qoxusu verən bu toksiki maddə benzoldur. Onkoloq Andrey Vorobyev bildirir ki, 34 brendin 148 məhsulunda benzol aşkarlanıb. Müstəqil laboratoriya ABŞ-ın FDA qurumuna petisiya ünvanlayıb. Şampunlarda benzolun səviyyəsi normadan 10 dəfə çoxdur. Petisiyida ekspertlər kommersiya məhsullarında benzolun istifadəsinin məhdudlaşdırılmasını tələb ediblər. Bəzi aerozol quzu şampunlar ötən ay potensial təhlükəli həddə görə geri yığılıb. Rəngsiz maye məhlul siqaret tüstüsündə, benzində, yapışdırıcılarda və plastırlarda var. Siçanlar və insanlar üzərində aparılan tədqiqat göstərib ki, benzol bir neçə xərçəng növünü 30-40% artırır".

# Ana olmağa hazırlaşanlar

## 10 mühüm məsləhətə qulaq asmalıdırlar

**Ana olmağa hazırlaşan xanımlar 9 ay ərzində öyrəşdikləri həyat tərzini istəristəməz dəyişməli olurlar.**

**Axşam.az-ın xarici mətbuata istinadən məlumatına görə, hamilə qadınlar qidalanmadan tutmuş, geyimə kimi aşağıdakı 10 mühüm məsləhətə qulaq asmalıdırlar:**

Təbii qidalar qəbul edin - C vitamini və kalsiumla zəngin olan qidalar qəbul edin. Süd, xama, pendir, ərik qurusu, qoz, fındıq, badam, yaşıl tərəvəzlər və s. bu vitaminlərlə zəngindir. Hətta bəzən əlavə kalsium həbləri də qəbul oluna bilər. Həftədə 2 dəfə balıq yeyilməli, gündə 2-3 stəkan süd içilməlidir.

Rahat geyinin - Bədəni sıxan geyimlərdən imtina edin. Hündürdaban ayaqqabılar yıxılma riski yaratdığına görə, düz və rahat ayaqqabılara üstünlük verin.

İdman edin - Bu, hamiləlik zamanı çox önəmlidir. Lakin sizi yoran və fiziki güc tələb edən hərəkətlərə yol verməyin. Bu, erkən doğuş riskini artıra bilər. Hər gün təmiz havada gəzin. Ağır şeylər qaldırmayın.

Xüsusi rejimlə qidalanın - Az, amma tez-tez yeyin. Yeməyi asta yeməli, tikələri yaxşı çeynəməlisiniz. Qızardılmış təamlar yerinə, suda qaynadılmış, buxarda bişirilmiş xörəklərə üstünlük verin. Hər gün mütləq süd, qatıq və ya pendir yeyin.

Çəkinizi nəzarətdə saxlayın - Hamiləlik müddətində 10-12 kiloqram kökəlmək normaldır. Çəkinizin həddindən çox artmaması üçün şirin və yağlı məhsulları az qəbul edin, gündə 2 litr su için.



Dişlərinizin qayğısına qalın - Hamiləliyin əvvəlində müalicəyə ehtiyacı olan dişlərinizi həkimə göstərin. Yeməkdən sonra dişlərinizi fırçalayın. Hamiləliyin 4-cü ayından sonra hormonal dəyişikliklər səbəbindən diş ətində şişkinlik və həssasiyyət meydana gələ bilər. Belə hal bəzi qadınlarda diş əti iltihabına da çevrilir.

Müntəzəm olaraq təzyiqinizi ölçün - Yüksək təzyiq hamiləliyin əsas problemlərindən biridir. Turşulardan və duzlu yeməklərdən uzaq dayanın. Çay, qəhvə, kola kimi içkilərdən az istifadə edin.

Uzun yola çıxmayın - Daha çox yaxın məsafəli səyahətlərə çıxın. Uzun yola çıxan zaman isə hər 2 saatdan bir piyada gəzin. 32-ci həftəyədək təyyarəyə minmək olar.

Duş qəbul edərkən suyun temperaturunu düzgün tənzimləyin - Su həddindən çox isti və ya soyuq olmamlıdır. Hamiləliyin ilk aylarında vanna otağında sürüşmə və yıxılma ehtimalları nəzərə alınmalıdır. Üzgüçülüyün hər hansı bir fəsadı yoxdur. Sauna isə hamilə qadınlara qadağandır.

Spazmaları (damarların daralması) aradan qaldırmaq üçün əzələ masajı edin - 20-ci həftədən sonra bədənin müxtəlif hissələrində, daha çox isə ayaqlarda spazmalar meydana gəlir. Belə hal yaşanan zaman ağrı olmayan digər ayaqdakı eyni hissəni əlinizlə ovuşdurun. Bu zaman spazmalar sürətlə azalacaq. Daha sonra ayağınızı rahat şəkildə uzadaraq masaj edin.

## Arif Babayevin vəziyyəti yaxşıdır

“Bir həkim var, ağrıyan yerlərmi sağaltdı”



**”Həmin Zaur” verilişi Xalq artisti Arif Babayevin evindən reportaj hazırlayıb.**

Axşam.az xəbər verir ki, xanəndə bir neçə gün əvvəl yayılan ölüm xəbərindən danışıb:

”Yaxşıyam, hər şey qaydasındadır. Dizlərimdə bir az ağrı var, amma yaxşıyam. Qələm əhlinə hörmətim var. Amma şəklimi götürüb divara vur ki, rəhmətə gedib. Qohumlarım, sevənlərim var. Hamısı ağlayır. Biri rayonda, biri xaricdədir.

Bir həkim var, ağrıyan yerlərmi sağaltdı. Evdə xanımımla yaşayırıq. Balalarım, nəvələrim gəlir. Onlarsız yaşaya bilmərəm”.

## Şiş "Toppuş bacı"nın beyninə yayılıb

Bu barədə aktrisa Ülviyyə Əliyeva sosial şəbəkədə məlumat yayıb



**Xərçəng xəstəliyindən əziyyət çəkən Əməkdar artist Tünzalə Əliyevanın (”Toppuş bacı”) şiş artıq beyninə yayılıb.**

Bu barədə aktrisa Ülviyyə Əliyeva sosial şəbəkədə məlumat yayıb. O bildirib ki, həmkarının səhhəti yaxşı deyil:

”Vəziyyəti yaxşı deyil. 2-3 gün əvvəl həkimdə oldu. Analizlərdən məlum oldu ki, metastaz artıq beyninə verib. Yenidən kimyaterapiyaya başlayacaq. Hamınızdan dua istəyirəm. Allah onu övladına bağışlasın”.

*Qeyd edək ki, aktrisa beş ildir xərçəngdən müalicə alır.*

**Aygün**

# “Göz bəbəyim”

## AzTV 44 günlük müharibəyə aid filmini təqdim etdi

**”Azərbaycan Televiziya və Radio Verilişləri” QSC 8 Noyabr - Zəfər Gününə həsr olunmuş bədii filmin təqdimat mərasimini keçirib.**

**QSC-nin İctimaiyyətlə əlaqələr və sosial media şöbəsindən ”Şərq”ə verilən məlumata görə, ”Göz bəbəyim” adlı bədii film 44 günlük Vətən müharibəsi fonunda iki gəncin sevgisindən bəhs edir.**




***Bədii film 8 noyabr saat 18:00-da AzTV-də yayımlanacaq***

”Göz bəbəyim” filminin ”Park Cinema” (Park Bulvar TM) kinoteatrında keçirilən təqdimat mərasimində filmin yaradıcı heyəti, şəhid ailələrinin üzvləri, XTQ üzvləri, media mənsubları, QSC-nin nümayəndələri və digər qonaqlar iştirak edib.

Əsas süjet xətti 44 günlük müharibə olan filmdə real qəhrəmanların - Xudayar Yusifzadə, Toğrul Hacıyev, Daşqın Səfiyev, Cəbrayıl Dövlətzadə, AzTV-nin operatoru Sirac Abışov və başqa şəhidlərimizin obrazı canlandırılıb. Müharibə zamanı fərqli cəbhələrdə döyüşən, fərqli məkanlarda şəhidlik zirvəsinə ucalan həmin qəhrəmanların filmdə bir araya gətirilməsi, onların dostluğu yaradıcı heyətin bədii təxəyyülüdür.

Filmdə Nigar adlı gənc xanım (aktrisa Fəridə Şahbazova) və gənc heykəltəraş Fərid (aktyor Sənan Əlləz) yenicə ailə qurur, noyabrda dünyaya gələcək övladlarını səbirsizliklə gözləyirlər. Lakin Vətən müharibəsi onların planlarına öz korrektələrini edir. Torpağını qorumaq, atababa yurdunu düşmən işğalından azad etmək üçün Fərid xəstəxanada olan hamilə həyat yoldaşını Vətənə əmanət edərək könüllü olaraq cəbhəyə yollanır. Amansız döyüşlər zamanı o, vətənpərvərliyin, əsl dostluğun, mərdliyin, qəhrəmanlığın nə olduğunu öyrənir.

Göz bəbəyim” filminin rejissoru Zaur Zeynal, ssenari müəllifi Leyla Qədirzadə, icraçı prodüseri Nicat Həsənli, operatoru Aqşın Rzayev, bəstəkarı Qurban Abbaslıdır. Layihə rəhbəri isə Həmid Əsədzadədir.

Bədii film 8 noyabr saat 18:00-da AzTV-də yayımlanacaq.

Film bu gün, 5 noyabr saat 19:00-da ”Park Cinema” (Park Bulvar TM) kinoteatrında ödənişsiz olaraq nümayiş olunacaq.

**Aygün**



## Mələkxanım Eyubova həyat yoldaşı ilə görüntüləndi

**Xalq artisti Mələkxanım Eyubova həyat yoldaşı Xosrov Nəcəfovla birlikdə görüntülənib.**

Onları birlikdə ”Zaurla Günaydın” kamerasına tuş gəliblər.

Xanəndə ilə bağlı suallara X.Nəcəfov ”Onun oxuduğu bütün mahnılar mənim üçün xoşdur. Söz verdi ki, sənətin zirvəsini fəth edəcəyəm. Bunu da sübut etdi. Ona dəstəyimi əsirgəmədim. İlk əvvəl razı deyildim. Sonradan gördüm əzab çəkir, sənət sevgisindən irəli gəlirdi. O əziyyət çəkirdi, mən ondan çox əziyyət çəkirdim. Gördüm oxumalıdır, səhnədə olmalıdır. Nə qədər həyatdayam onun xidmətində olacağam” cavabını verib.

*Qeyd edək ki, polis polkovniki Xosrov Nəcəfov ötən il vəzifəsindən azad olunaraq, təqaüdə göndərilib.*

**Elan**

Süleymanov Süleyman Baba oğlunun adına verilmiş 013316 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

# Xilası üçün pul lazımdır

## Azərbaycanda gənc müğənninin yonulan dişi xərçəngə səbəb oldu






**Azərbaycanda gənc müğənni, bəstəkar, ”Yeni Ulduz” yarışmasının iştirakçısı olan 31 yaşlı Samir Cabbarov bir ildir xərçəngdən əziyyət çəkir.**

”Medicina” xəbər verir ki, 2 il əvvəl stomatoloq tərəfindən yonulan dişinin sərt ucu onun dilinə sürtünərək dilin kənarlarını zədələyib. İlk öncə buna əhəmiyyət verməyib, bir müddət sonra onun dilinin kənarında kiçik şiş kimi qabarıq əmələ gəlib.

Daha sonra limfaları şişən Samirə həkimlər həmin şişin xərçəng olduğunu və limfalara yayıldığını bildirir.

Onkologiya mərkəzində onun dilinin yarısı və limfa düyünləri kəsilir.

Kimyaterapiyalardan bir neçə ay sonra yenidən çənədə yumru şişlər əmələ gəlib.

Hazırda həmin şişlərin yeri dəlik kimi qalıb. Xəstəliyinə görə 20 kq arıqlayan, artıq mədəyə birləşmiş borucuq ilə qidalanan Samirin müalicəsində Bakıda oluna biləcək üsul qalmayıb.

Samirin həyat yoldaşı onu Türkiyəyə apararaq ağıllı dərman metoduna üz tutmaq istəyir.

”Biz bir neçə dəfə İstanbulda bahalı kimyaterapiyalardan keçmişik. Samirin qardaşı, yaxınları bu 1 ildə bütün müalicələrin xərcini çəkib. Amma daha manatımız belə yoxdur.

Samir yaxşı danışa bilmir, qorxur, heç dostlarının da onu bu halda görməsini istəmir. Heç bir verilişə çıxa bilmir.

Ağıllı dərmanın alınması üçün 15-20 min dollar lazımdır.

14 noyabrda biz Türkiyədə çek-apdan keçməliyik. Vaxt azdır, Samirin xilası üçün bundan artıq yol qalmayıb.

Ümidimiz gələn hər yerə üz tutmuşuq.

Samir hələ gəncdir, gözəl səsi var, arzuları, xəyalları vardı. Onu belə görmək içimizi parçalayır”

*Samirə yardım etmək üçün bank hesab kartını təqdim edirik.*



## “Günah birinci həyat yoldaşındadır"

Şəbnəm: “Qadın sevirsə, az məbləğə də razı olur”

**Müğənni Şəbnəm Tovuzlu açıqlaması ilə müzakirələrə səbəb olub.**

”MTV maqazinə” açıqlama verən sənətçi ikinci dəfə ailə qurmaqdan danışıb. O bildirib ki, ayrılıqların günahkarı qadınlardır:

”Qadın sevməsə heç kimdir. Nə qədər varı, pulu olsa da, mükəmməl, məşhur olsa da, sevməsə, xoşbəxt deyil. Qadın sevirsə, az məbləğə də razı olur.

Bəzən qınayırlar ki, kişi ikinci dəfə ailə qurur, qadın ayrıldı. İnsan həyatında nə olacağını bilmir. Adam ikinci sevgisini tapırsa, heç kim nəsə deyə bilməz. Bir kişinin ikinci dəfə ailə qurmasını istəmirlərsə, həyat yoldaşlarına daha çox sevgi göstərməyi, qadın olmağı bacarsınlar. Kişi ikinci dəfə ailə qurmağı seçməsin. Kişilər nə istəyir? Sığal, nəvaziş, oturub bir yeməyi qadınla ləzzətlə yeməyi istəyir. Kişi qulluq sevir, ilk özünü düşünür. Bir evdə kişi ikinci dəfə ailə qurursa, səbəbkar ikinci yox, birinci qadındır. Qadın qadın olsun ki, kişi elə addım atmasın. Nə qədər güclü qadın olsa da, zəif kişini belə məcbur yanında saxlaya bilməz”.

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:

Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: “Kapitalbank”ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 3172



## Polis küçədə körpənin qayğısına qalıb

### Anası avtomobili dayanacaqdan rahat çıxardı

**Türkiyənin Hatay bölgəsində körpəsi ağladığı üçün avtomobilini dayanacaqdan çıxarmaqda çətinlik çəkən qadına yol polisi əməkdaşı Emre Y. kömək edib. Polis əməkdaşı bir müddət qucağında saxladığı körpəni dayanacaqdan çıxan anaya təhvil verib.**

”Şərq” türk mediasına istinadən xəbər verir ki, Antakyada kafe və mağazaların sıx olduğu Atatürk küçəsində avtomobilini saxlayan qadın qısa müddət sonra geri qayıdıb. Maşına minərkən körpəsinin ağlaması ilə diqqəti dağılan ana dayanacaqdan çıxa bilməyib.

Bu vaxt küçədə növbətçi olan polis məmuru Emre Y. vəziyyəti görüb və ana-qızın olduğu maşına yaxınlaşıb. Körpəni qucağına alan Emre Y. bir müddət onu sakitləşdirib. Sonra körpəni avtomobilini dayanacaqdan çıxaran anaya verib. Vəziyyəti görən və mobil telefonu ilə lentə alan ətrafdakılar polis əməkdaşına təşəkkür ediblər.

**Turan**







## Bu kənddə hər kəs eyni soyadı daşıyır

### Burada fərqli soyada malik yalnız kəndin imamı olub

**Türkiyənin Siirt bölgəsi, Kurtalan əyalətinin Aksöyüt kəndində bütün sakinlər - böyükdən kiçiyə, yaşlıdan qocaya eyni soyadı - Yeşilyurt soyadını daşıyır. Kənddə fərqli soyada malik yalnız kəndin imamı olub.**

Mehmet Şafi Sevcan 26 il bu kənddə imamlıq edib. Lakin onun iş yerini dəyişərək Ballıqaya kəndinə imam təyin ediblər. Əvvəlki imamın yerinə isə Aksöyüt kənd sakinlərinin qohumu, 13 il Şanlıurfada imamlıq etmiş Akif Yeşilyurt təyin edilib deyə, artıq bu fərq də aradan qalxıb. Hazırda kənddə imam da başqa olmaqla 7-dən 77-yə hər kəsin soyadı Yeşilyurtdur. ”Şərq” ”NTV.com.tr”yə istinadən xəbər verir ki, 740 sakini olan kənddə 100 ev var. Necə olub ki, bir kənddə hər kəs Yeşilyurt soyadını daşıyır? Kəndin muxtarı Emrullah Yeşilyurt deyib ki, 140 il öncə babaları burada məskən salıb, yurd qurub. Babaları 4 qardaş imiş. 4 qardaşın törəmələri zamanla artıb-çoxalıb, kəndin camaatını təşkil edib. Ona görə də bu kənddəki bütün ailələr eyni soyadı daşıyır. Fərqli soyadlar bir də kənd məktəbində var - onlar müəllimlərdir. Müəllimlər kəndə müxtəlif bölgələrdən təyin edilir deyə, fərqli soyadların daşıyıcılarıdır. Lakin onlar kənd sakini hesab edilmir. Müəllimlərin işi isə xeyli çətindir. Şagirdləri sıra sayıyla bir-birindən fərqləndirirlər. Məsələn, Muhəmməd I, Muhəmməd II və sair. Kəndin imamı Akif Yeşilyurt da kəndə təyin edilməsinə sevindiyini deyib: ”Allah qismət elədi, doğma kəndə qayıtdım, burada çalışmağa başladım. Kənd camaatının hamısı bir-biriylə qohum-əqrəbadır. Kənddə yad adam yoxdur. Axşam məsciddən evə qayıtdıqda uşaqlar hardadır, narahat olmuram. Bilirəm ki, ya qardaşımın, ya əmimin evindədirlər”. Kənd sakini Mehmet Yeşilyurt hər kəsin eyni soyada malik olmasının bəzən məzəli hallar yaratdığını söyləyib: ”Müəllim bir şagirdin adını çəkir, ikisi, üçü birdən ayağa qalxır. Çox zaman şagirdləri soyadlarıyla deyil, ata adıyla çağırırlar. Qarışıqlıq olmasın deyə. Bankda, dövlət idarələrində isə bu durum qarışıqlığa səbəb olur. Məsələn, ”yaşıl kart”



üçün idarəyə getdim, baxdım ki, əmim oğluyla məni qarışıq salıblar. Sonra idarədən özləri kəndə gəldilər, ”yaşıl kart”ımı gətirən adam atamın, babamın adını soruşdu. Atamın adı Abdullahdır. Baxdı ki, ata adı Abdullah olan bir başqası da var. Sonra babamın adını soruşdu, şükür ki, babalarımızın adı fərqli imiş. Yoxsa mənə ”yaşıl kart” verməyəcəkdilər, adaşımın adına əmlak varmış. Başqa bir hadisə də olub. Qohumumuz İshak Yeşilyurt cərimə ödəyib, məlum olub ki, pulu o ödəsə də, başqasının borcu silinib. Bank kartlarımız da bəzən dəyişik düşür. Belə qarışıqlıqlar olur zaman-zaman. Amma kəndimizin bu halı da gözəldir”.

**Məlahət**

## Fransalı model islamı qəbul etdi



**Fransalı model Marin El Ximer islam dinini qəbul edib.**

**Axşam.az xəbər verir ki, bir həftədir paylaşımları ilə diqqət çəkən model islamı qəbul etdiyi anları izləyiciləri ilə bölüşərək məlumatları doğrulayıb. O, bunun bir neçə ay əvvəl baş verdiyini vurğulayıb.**

**Bundan başqa, Marin son paylaşımında Məkkəni ziyarət etdiyini də bildirib. O, bunu ən xoşbəxt günü olduğunu və sevincini ifadə etməyə söz tapa bilmədiyini yazıb.**

## "Duy beni" serialı final qərarı alıb



**Türkiyənin ”Star” kanalında yayımlanan ”Duy beni” serialı final qərarı alıb.**

**Axşam.az Türkiyə mətbuatına istinadən xəbər verir ki, buna səbəb ekran işinin reytinqdə gözlənilən nəticəni verməməsi olub. Serial dekabrın 1-də 22-ci bölümü ilə izləyicilərə vida edəcək.**

**Qeyd edək ki, ekran işində baş rolları aktyorlar Rabia Soytürk, Caner Topçu, Helin Kandəmir, Burak Can, Sümeyye Aydoğan canlandırır.**





## Əks-hücum...

### 8 yaşlı uşaq kobranı dişləyib öldürdü

**Hindistanın Çhatisqarh şəhərində evinin bağçasında oynayan 8 yaşlı uşaq onu dişləyən kobraya cavab olaraq onu öldürüb.**

”Şərq” xarici mediaya istinadən xəbər verir ki, araşdırmalara görə, ölümcül ilan sancmalarının 85 faizinin qeydə alındığı Hindistanda bu dəfə dişlənmiş kobra ölüb.

8 yaşlı Dipak adlı uşaq həyətyanı sahədə oynayarkən kobranın hücumuna məruz qalıb.

Kobra Dipakın qolunu bükdükdən sonra dişləyib.

İlandan qurtula bilməyən uşaq əks-hücuma keçərək kobranı dişləyib.

Xoşbəxtlikdən zəhər oğlana keçməyib və Dipak sağ qalıb.

”New Indian Express” qəzetinə danışan uşaq belə deyib: ”Kobradan xilas olmaq üçün onu yelləsəm də, qurtula bilmədim, ona görə də iki dəfə bərk dişlədim. Hər şey bir anda oldu”.

Dipakın valideynləri hadisədən sonra uşaqlarını yerli sağlamlıq mərkəzinə aparıblar.

Müayinələrdə Dipakın yarasının ”quru dişləmə” olduğu və zəhərin bədəninə daxil olmadığı müəyyən edilib. 8 yaşlı uşaqda heç bir əlamət müşahidə edilməyib.

”Quru dişləmə” tez-tez yetkin kobralar tərəfindən istifadə olunur.

Zəhərli ilanlar öz balalarını qorumaq və ya təhlükə qarşısında olduqları zaman ölümcül zəhər ifraz edirlər, sadəcə rəqiblərini xəbərdar etmək istədikləri zaman ”quru dişləmə”dən istifadə etməyə üstünlük verirlər.

**Turan**

## Keçmiş sevgilisinin hesabı silinib

### Hamı İlon Maskdan şübhələnir



**Dünyanın ən zəngin iş adamı İlon Mask Twitter sosial media platformasını satın alandan sonra keçmiş sevgilisi Amber Heardın hesabının silinməsi diqqət çəkib.**

Maskın qəsdən Heardın hesabını sildiyi iddia edilib. Bununla belə, Heardın hesabını könüllü olaraq silmiş ola biləcəyi də iddialar sırasındadır.

Twitter-də aktrisanın rəsmi hesabı ”RealAmberHeard” axtarıldığında profilin sistemdən silindiyi və ”Belə bir hesab yoxdur” ifadəsinin olduğu görünür.

Hələ də 5,3 milyon izləyicisi olan İnstaqram hesabında aktiv olan Heard Johnny Depp davası ilə bağlı son paylaşımını ötən ilin iyun ayında etmişdi və oyunçu hələ də Twitter hesabının silinməsinə münasibət bildirməyib.

**Turan**

## Ərzaq böhranı gəlir

### BMT-nin Baş katibi xəbərdarlıq edib



**“Quraqlıqlar, isti dalğalar və daşqınlar qida istehsalına dağıdıcı təsir göstərir”.**

”Report” xəbər verir ki, bunu BMT-nin Baş katibi Antonio Quterreş tviterdə yazıb.

O bildirib ki, ölkələr iqlim böhranını idarə etmədikcə inkişaf edən qlobal ərzaq böhranının qarşısını almaq mümkün olmayacaq: ”İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasına (COP27) uyğun olaraq liderlər aclığın qarşısını almağa kömək etməli, iqlim probleminin həll yolları ilə bağlı öhdəliklər götürməlidirlər”.